Xalqın qəzeti!
# Xalq qəzeti
№ 263 (30379) 2 dekabr 2023-cü il, şənbə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

# İqlim dəyişmələrinə təsirlərin azaldılması və uyğunlaşma

## Prezident İlham Əliyev Dünya İqlim Fəaliyyəti Sammitində

**Dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısını qarşıladılar.

Sonra birgə foto çəkdirildi.

*AZƏRTAC*






# Ölkəmiz "yaşıl keçid" hərəkatının ön sırasında

**Noyabrın 30-da Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP28) 28-ci tərəflər konfransı öz işinə başlayıb. Tədbirdə 100-dən çox dövlət və hökumət başçısı, on minlərlə yaxın nümayəndə iştirak edir.**



Azərbaycan COP28-də böyük nümayəndə heyəti ilə təmsil olunur. Bu da tədbirdə ölkəmizin ekoloji cəhətdən təmiz və enerjiyə qənaət edən "yaşıl" texnologiyalardan istifadə perspektivlərini müzakirə etmək imkanı yaradır. Onu da qeyd edək ki, Azərbaycan ilk dəfə olaraq bu il COP28 sərgisində ayrıca pavilyonla təmsil olunur. 254 kvadratmetr sahədə quraşdırılan pavilyonda müxtəlif yerli, regional və beynəlxalq təşkilatlarla birgə tədbirlər və seminarlar keçiriləcək. Eyni zamanda, ölkəmizin iqlim dəyişikliyi ilə mübarizə və onun təsirinin azaldılması istiqamətində gördüyü işləri əks etdirən virtual eksponatlar nümayiş etdiriləcək. Yeri gəlmişkən, dövlətimizin başçısı İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin evsahibliyi ilə keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasında iştirakı tədbirin ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını sübut edir.

*(ardı 7-ci səhifədə)*

# Qriqoryan ABŞ-a gedir



**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bu gün – dekabrın 2-də ABŞ-a işgüzar səfərə yollanıb. Bu barədə məlumatı onun rəhbərlik etdiyi qurum yayıb. Məlumatda bildirilib ki, Qriqoryanın Birləşmiş Ştatlarda Ermənistan–ABŞ ikitərəfli münasibətlərini müzakirə edəcəyi nəzərdə tutulur. Ancaq bu qəfil səfər məsələyə bir qədər fərqli aspektdən yanaşmağı zəruriləşdirir.**

*(ardı 4-cü səhifədə)*

# ATƏT heç vaxt Qarabağda sülhün təminatçısı olmayıb




**İndi elə bir məqam yetişib ki, artıq Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Azərbaycana hansısa məsələdə məsləhət verməyə, nəyi və necə etməyi öyrətməyə haqqı yoxdur. Bakının isə ona deməyə sözü var. Bu söz haqqını isə son üç ildə Cənubi Qafqazda geosiyasi vəziyyəti və deməli, reallığı kökündən dəyişən Azərbaycan özü qazanıb.**

ATƏT-in 28 il bundan əvvəl Ermənistan–Azərbaycan münaqişəsini nizamlamaq, bölgədə sülhü təmin etmək rıçağı kimi yaratdığı Minsk qrupunun fəaliyyətindən yalnız keçmiş zamanda, həm də ironiya ilə danışmaq olar. Həmin Minsk qrupunun üç həmsədrindən biri olan Fransanın bu müddət ərzində açıq-aşkar Ermənistanı dəstəkləməsini də unutmamışıq və heç zaman unutmayacağıq.

"İyirmi səkkiz il ərzində ATƏT-in Minsk qrupunun fəaliyyəti sıfıra bərabər olub. Bu qurumun başlıca məqsədi münaqişənin nizamlanması yox, onun dondurulması idi. Belə münasibətlə razılaşmayan Azərbaycan münaqişəni özü həll edib".

Bu həqiqəti keçən il oktyabrın 14-də Astanada MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışında Azərbaycan Prezidenti İlham Əliyev bildirib.

*(ardı 3-cü səhifədə)*

# Mirzoyanın ATƏT forumundakı çıxışı – avantürizm üçün növbəti manipulyasiya

Səhifə ⇨ 4

# "Freedom House" indi də separatizmin dəstəkçisi rolunda çıxış edir

Səhifə ⇨ 6




# "Kəpəz"i batıranlar klubdan kənarlaşdırılıblar




Səhifə ⇨ 11



# Makrondan narazılıq getdikcə artır

**Fransa daxilində prezident Emmanuel Makronun fəaliyyətindən narazılıq getdikcə artır. "Verian-Epoka" sorğu şirkətinin ölkənin əsas qəzetlərindən olan "Le Figaro"nun sifarişi ilə keçirdiyi rəy sorğusunun nəticələri bunun nümunəsi hesab oluna bilər.**

*(ardı 3-cü səhifədə)*

## Rumıniyanın Prezidenti Zati-aliləri cənab Klaus Verner İohannisə

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan–Rumıniya münasibətləri xoş ənənələrə malikdir. Bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimizin hazırkı inkişaf səviyyəsi və gündən-günə genişlənməsi məmnunluq doğurur.

Bu gün ölkələrimiz arasında əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur. İnanıram ki, son dövrdə həyata keçirilən ali və yüksək səviyyəli qarşılıqlı səfərlər, müntəzəm təmaslar strateji tərəfdaşlığımızın möhkəmlənməsinə, siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə birgə fəaliyyətimizin geniş potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Rumıniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 noyabr 2023-cü il**

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

Əlahəzrət,

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Fürsətdən istifadə edərək ölkənizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflərinin 28-ci Konfransının rəsmi açılışı münasibətilə də Sizi təbrik edir, tədbirin işinə uğurlar diləyirəm.

Dini və mədəni köklərlə bir-birinə bağlı olan Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi məmnunluq doğurur. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimiz gündən-günə daha da möhkəmlənir, tərəfdaşlığımızın əhatə dairəsi genişlənir.

Aramızdakı fəal siyasi dialoq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Ölkələrimizin dostluq ənənələrinin qorunub saxlanmasında, ikitərəfli münasibətlərimizin bugünkü səviyyəyə yüksəlməsində Sizin böyük əməyiniz vardır.

Biz dost ölkə və etibarlı tərəfdaşımız olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrimizin dərinləşməsinə xüsusi əhəmiyyət verir, birgə fəaliyyətimizi yeni məzmunla zənginləşdirmək əzmindəyik. Bu yaxınlarda ölkənizin "Masdar" şirkəti tərəfindən tikilən və regionda ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı qardaşlıq əlaqələrimizin növbəti bariz təzahürüdür.

Əminəm ki, möhkəm təməllər üzərində qurulmuş ikitərəfli münasibətlərimiz və səmərəli, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafeləri naminə bundan sonra da birgə səylərimizlə uğurla inkişaf etməyə və güclənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 noyabr 2023-cü il**

# Azərbaycanın Dubayda iqlim fəaliyyəti təqdimatı

**Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasında – COP28-də pavilyonla təmsil olunur.**




Dubayda dekabrın 12-nədək davam edəcək COP28 çərçivəsində Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan milli pavilyon "İqlim dayanıqlığı üçün davamlı həlləri rəhbər tutaq" mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası Azərbaycanın zəngin flora və faunası üzərində qurulub.

İnteraktiv formatdakı pavilyonda Azərbaycanın iqlim dəyişikliyi sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya, adaptasiya üzrə fəaliyyəti və digər layihələr barədə məlumat verilir.

Qeyd edək ki, ölkəmiz 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35% azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib və bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir.

Pavilyonda "Enerji keçidi", "Ətraf mühit xəritəsi", "Bərpaolunan enerji", "Ağıllı kənd" və digər bölmələr fəaliyyət göstərir. İnteraktiv formatdakı "Azərbaycanın Ətraf Mühit Xəritəsi" Milli Parklar, İqlim növləri, Bərpaolunan enerji, Su ehtiyatları və Yaşıl konsepsiyanı əks etdirir. Hər mövzu mövcud infrastruktur və gələcək layihələr haqqında ətraflı məlumatlarla Azərbaycanın xəritəsini təqdim edir. Pavilyondakı instalyasiyada Azərbaycan Respublikasının "Qırmızı kitab"ı, iqlim təşəbbüsləri və minalarla mübarizə mövzusu da əhatə olunub. Burada "Qırmızı kitab"a düşmüş və Azərbaycanda nəsli kəsilməkdə olan heyvan və bitkilər haqqında məlumatlar, QHT və dövlət qurumları tərəfindən həyata keçirilən ekoloji layihələr, ölkəmizdəki mina problemi və ekoloji nəticələri barədə məlumat verilir.

Pavilyondakı "Ağac ək" bölməsində isə Ermənistanın işğalı zamanı dağılmış ekoloji tarazlığı bərpa etmək üçün Azərbaycanda, xüsusən də Qarabağda həyata keçirilən ağacəkmə təşəbbüsləri təqdim olunur. Pavilyonun hər bir ziyarətçisi də planşet vasitəsilə rəqəmsal olaraq ərizə təqdim edərək ağacəkmə (şam və ya zeytun ağacı) təşəbbüsünə qoşula və bununla Qarabağın ekoloji balansının bərpasına dəstək ola bilər. Bu ağaclar Qarabağ bölgəsində – Füzuli şəhərində əkiləcək.

XQ

## ATƏT-in Baş katibi Ermənistanın oyunları barədə məlumatlandırılıb



**Noyabrın 30-da Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Skopye şəhərində ATƏT Nazirlər Şurasının 30-cu iclasında iştirakı çərçivəsində ATƏT-in Baş katibi Helqa Şmid ilə görüşüb.**

Görüş zamanı Azərbaycan–ATƏT ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətləri, hazırda ATƏT-in üzləşdiyi çağırışlar, eləcə də regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov beynəlxalq hüququn əsas müddəalarına, o cümlədən, ərazi bütövlüyü və suverenlik kimi təməl prinsiplərinə hörmətlə yanaşılmasında, bu prinsiplərin qorunub saxlanılmasında çoxtərəfli platformaların, eləcə də, ATƏT-in daha effektiv yanaşma sərgiləməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə postmünaqişə dövründə regionumuzda yaranmış reallıqlar, işğaldan azad olunmuş ərazilərimizin bərpası və məcburi köçkünlərin mərhələli şəkildə həmin ərazilərə qayıdışı, bərpa-qayıdış fəaliyyətlərinə ən böyük əngəl kimi mina təhdidi, eləcə də sülh prosesinin irəliyə aparılması istiqamətində ölkəmizin səyləri diqqətə çatdırılıb.

Ermənistanın götürdüyü öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən silahlı qüvvələrini çıxarmaması fonunda ölkəmiz tərəfindən cari ilin sentyabr ayında 24 saat ərzində həyata keçirilmiş antiterror tədbirləri barədə qarşı tərəf məlumatlandırılıb.

Beynəlxalq təşkilatların nümayəndələrinin də təsdiqlədiyi kimi, bu prosesdə mülki şəxslərə qarşı heç bir zorakılıq faktının olmadığı vurğulanıb, erməni sakinlərin ərazilərimizi tərk etməsinə gəlincə, bunun məsuliyyətinin Ermənistanın və onun təbəçiliyində olmuş qondarma rejimin üzərinə düşdüyü vurğulanıb.

Bu xüsusda, ərazi bütövlüyü və suverenliyin bərpası kimi beynəlxalq hüququn əsas prinsiplərinə münasibətdə ikili standartların, selektiv yanaşmanın tətbiqinin qəbuledilməzliyi qeyd olunub.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

***

**Həmin gün Xarici İşlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 30-cu iclası çərçivəsində Monteneqronun xarici işlər naziri Filip İvanoviç ilə görüşüb.**

Azərbaycan ilə Monteneqro arasında diplomatik münasibətlərin qurulmasından ötən 15 il ərzində iki ölkənin dostluq və əməkdaşlığa əsaslanan əlaqələr qurduğunu diqqətə çatdıran nazir Ceyhun Bayramov bu istiqamətdə qarşılıqlı səfər və təmasların, siyasi məsləhətləşmələrin intensivləşməsinin əhəmiyyətli rol oynadığını qeyd edib.

İki ölkə arasında müxtəlif sahələr, o cümlədən, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat, investisiyalar, turizm, təhsil, humanitar və s. istiqamətlər üzrə əməkdaşlığın daha da inkişafı üçün potensialın mövcud olduğu, bu istiqamətdə münasibətlərin inkişaf perspektivlərinin müzakirəsi, habelə müqavilə-hüquq bazasının genişləndirilməsi üçün siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi vurğulanıb.

Nazir Filip İvanoviç Monteneqronun Azərbaycan ilə münasibətlərin daha da inkişafı istiqamətində mövcud potensialdan istifadə edilməsində maraqlı olduğunu, bu istiqamətdə qarşılıqlı dialoqun davam etdirilməsinin zəruriliyini bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

***

Dekabrın 1-də xarici işlər naziri Ceyhun Bayramov Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində təşkil olunan Azərbaycan tədqiqatları üzrə II Avropa Konfransının xüsusi sessiyasında çıxış edib.

Ceyhun Bayramov postmünaqişə dövründə Azərbaycanın xarici siyasət prioritetləri, Azərbaycan və Ermənistan arasında münasibətlərin perspektivləri, habelə regional vəziyyət barədə ölkəmizin mövqeyini diqqətə çatdırıb.

Xarici işlər naziri sentyabrın 19-da keçirilmiş antiterror tədbirlərini səciyyələndirən amillər barədə məlumat verib.

Nazir ölkəmizin bölgədə apardığı bərpa və quruculuq işləri barədə məlumat verib. Bununla yanaşı, Ermənistanın ölkəmizə qarşı törətdiyi mina təhdidlərini xüsusi vurğulayıb.

Nazir, həmçinin Ermənistanın hərbi potensialını gücləndirməyə və bəzi üçüncü tərəflərin bölgədə destruktiv fəaliyyətinə diqqət çəkib. Bu kimi fəaliyyətin bölgədə sülh və sabitliyə xidmət etmədiyini vurğulayıb.

Antiterror tədbirlərindən sonra ölkəmizə qarşı qərəzli və təxribatçı ittihamların regiona səfər edən, eləcə də Ermənistanda aktiv fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları ilə ziddiyyət təşkil etdiyi və ölkəmizə qarşı iddiaların əsassızlığının sübut olunduğu xatırlanıb.

Daha sonra Xarici İşlər naziri Ceyhun Bayramov tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

XQ

# Milli Məclisin Sədri Almaniyada

**Milli Məclisin Sədri Sahibə Qafarovanın Alamaniyaya səfəri davam edir. O, səfər çərçivəsində Almaniya Federativ Respublikası Bundestaqının Sədri Barbel Bas ilə görüşüb.**



Ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafından danışan B.Baş Milli Məclis Sədrinin Almaniyaya rəsmi səfərinin ikitərəfli əlaqələrin daha da genişlənməsinə müsbət təsir göstərəcəyinə inamını bildirib. Qeyd olunub ki, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd edilib. Bu dövr ərzində ikitərəfli münasibətlər siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf edib və əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar yaranıb.

Bundestaqın Sədri hazırda ölkəsinin enerji təchizatında yaranmış problemlərlə bağlı fikirlərini bölüşüb. O, Almaniyanın bərpa olunan enerjiyə göstərdiyi diqqət, bu sahədə çalışan şirkətlər, Bundestaqın parlamentariləri haqqında danışıb. B. Bas Azərbaycanın da bərpa olunan enerji sahəsində müvafiq qurumları ilə əlaqələrin yaradılması barədə fikirlərini bölüşüb.

S.Qafarova ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlərin, görüşlərin rolunu vurğulayaraq, diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2023-cü ilin martında Almaniyaya işgüzar səfəri, Prezident Frank-Valter Ştaynmayer və Kansler Olaf Şoltsla görüşləri əməkdaşlıq əlaqələrinin müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edib.

Görüş zamanı Azərbaycanın regionda uzunmüddətli sülhün əldə olunması təşəbbüsü ilə çıxış etdiyi, Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipi təqdim etdiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, Ermənistanın siyasi və hərbi təxribatları, son 3 ildə üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimə davamlı dəstəyi Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsini qaçılmaz edib. Bu tədbirlər mülki şəxslər arasında heç bir itki olmadan beynəlxalq hüquqa tam uyğun olub. Nəticədə separatçı rejim özünü ləğv etdi və Azərbaycanın suverenliyini tam bərpa olunub.

Sədr qeyd edib ki, bu gün Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur. Azərbaycan sülh sazişinin imzalanması üzrə danışıqları davam etdirməyə hazırdır.

***

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Almaniya Federativ Respublikasında səfərdə olan Azərbaycan parlament nümayəndə heyətinin üzvləri Almaniya–Cənubi Qafqaz parlamentlərarası əlaqələr üzrə qrupun üzvləri ilə görüşüblər.

Söhbət zamanı ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Azərbaycan və Almaniya arasında ikitərəfli münasibətlər bir çox sahələrdə uğurla inkişaf edib və əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var.

Bu səfərin ikitərəfli əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inamın ifadə olunduğu görüşdə dostluq qrupları arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb, qarşılıqlı səfərlərin və təmasların önəmi diqqətə çatdırılıb. Belə təmasların qarşılıqlı məlumatlandırma, ölkələrimiz arasında əməkdaşlığın aktual məsələlərinin müzakirəsi baxımından faydalı ola biləcəyi qeyd edilib.

Deputatlar hazırda regionda mövcud olan vəziyyət, Azərbaycanın sülh təşəbbüsləri barədə almaniyalı həmkarlarını ətraflı şəkildə məlumatlandırıblar.

**Ə.BƏDƏLOV**
**XQ**

# ATƏT heç vaxt Qarabağda sülhün təminatçısı olmayıb

## Bu təşkilat 28 il Azərbaycanın haqlı çağırışlarına göz yummaq, işğalı "qanuniləşdirmək" siyasəti yeridib




(əvvəli 1-ci səhifədə)

Cənubi Qafqazda tamamilə yeni və fərqli dönəm başlayıb. Amma, təəssüf ki, bu yeni dövrün bölgədə sülh və tərəqqi ilə müşayiət olunmasına yenə Ermənistan və onun Avropada və okeanın o tayındakı tərəfdaşları mane olurlar. Sanki həmin Minsk qrupundakı uğursuz həmsədrlik institutu indi fərqli formatda xortlayaraq əvvəlki mövqe və maraqlardan çıxış edir. Bunun nə qədər səmərəsiz və son nəticədə İrəvana ziyan vuracaq cəhdlər olduğunu anlamaqda çətinlik çəkənlər var. Keçmişin ətalətindən qurtula bilməyənlərə, o dövrün "bəlkə də qaytardılar" ovqatlı nisgilini yaşayanların menyusuna Bakı daha hansı reallığı daxil etməlidir ki, birdəfəlik qəbul etsinlər: indi nə otuz il əvvəlki Azərbaycan var, nə də keçmiş Ermənistan.

"Bizim legitim çağırışlarımıza məhəl qoymama praktikası, işğalın status-kvosuna dözüm göstərmək Ermənistanı daha da cəsarətləndirdi. ATƏT həllin bir parçası olmaq şansına sahib idi, təəssüf ki, bunu itirdi". Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov ATƏT XİN Şurasının Skopye toplantısındakı çıxışında keçmişə nəzər salaraq, bununla qurumun çoxillik fəaliyyətinə rəsmi Bakının dəqiq və obyektiv qiymətini açıqlamış oldu. C.Bayramov, eyni zamanda, bütün çətinliklərə baxmayaraq, Azərbaycanın sülh sazişinin yekunlaşdırılması üçün Ermənistanla birbaşa təmasların təzkilə bərpasına sadiq olduğunu avropalı həmkarlarının diqqətinə çatdırdı: "Biz açıq şəkildə Ermənistana dövlət sərhədində, yaxud qərəzsiz və neytral üçüncü bir ölkədə görüşməyi təklif etmişik. Biz, Azərbaycan və Ermənistan üçün mehriban qonşuluq münasibətləri qurmaq və iki suveren dövlət kimi sülh şəraitində birgə yaşamaq üçün tarixi imkanın möcvudluğuna qəti şəkildə inanırıq. Bu imkandan istifadə etməyin vaxtıdır".

Ermənistanın sülhə gedən yolun qonşularla ikitərəfli dialoqdan, normal münasibətlərdən keçdiyini başa düşməsinin vacibliyini xatırladan nazir bütün hallarda prosesdə iştirakçı dövlətlər tərəfindən ikili standartlara yol verməmdən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət edilməsinə qeyd-şərtsiz riayət olunmasının böyük əhəmiyyət kəsb etdiyini avropalı həmkarlarının diqqətinə çatdırıb.

* * *

Şimali Makedoniyanın paytaxtında dünyaya "Ermənisiz Dağlıq Qarabağı (?) qazanan Azərbaycan indi də Ermənistanın suveren ərazisinə göz dikib" – xarakterli avantürist bəyanat üfürən Hayastanın baş diplomatı Ararat Mirzoyan Bakının Avropa İttifaqı və ABŞ platformalarında sülh danışıqlarını boykot etməsindən şikayətlənib.

Qonşunun torpağına nəinki göz dikən, onun ərazisini iyirmi səkkiz il işğal altında saxlayan kim idi? Bəs üç il əvvəl imzaladığı bəyanatla boynuna götürdüyü öhdəlikləri yerinə yetirməkdən yan qaçan kimdir? Bəlkə Qarabağ erməniləri suveren ərazisində yaşadıqları Azərbaycan Bayrağının altından deyil, bizim qaçğın və məcburi köçkünlərimiz doğma yurduna qayıtmaqdan ötrü Xankəndidəki separatçı-xunta rejiminin bayraq dedikləri əski parçasına boyun əyməli idilər? ATƏT-in Minsk qrupu Mirzoyanın Hayastanına bunumu vəd etmişdi? Bəs nə oldu?

Dünyanın heç bir yerində hansısa dövlət, o cümlədən, suveren Azərbaycan da öz torpağında qanunsuz xunta rejiminin mövcudluğuna dözməzdi və dözmədi. Məhz işğalçılığa və ədalətsizlik şəraitinə Ermənistan kimi ATƏT və digər beynəlxalq təşkilatların da aşkar etinasızlığı, danışıqlar prosesini məntiqi sonluğa çatdırmaqda maraqlı olmayan həmsədrlərin, indi isə vasitəçilərin adekvat addımlar atmaması sülhün yolunu bağlamışdı. Üzdə Azərbaycanın narahatlığını anlayıb qəbul etdiklərini deyən beynəlxalq aktorlar arxada ermənipərəst "ssenariləri" gerçəkləşdirməyə üstünlük verirdilər. Azərbaycan bir günlük antiterror tədbiri ilə ona qarşı siyasi şantajın bütün növlərini sınaqdan çıxaranların illüziyaya qapıldıqlarını sübut etdi.

Xarici İşlər naziri Ceyhun Bayramov Bakının tarixin arxivinə göndərdiyi beynəlxalq təşəbbüslərə ehtiyac qalmadığını birmənalı şəkildə bəyan edib: "ATƏT mexanizmlərinin hələ də "uyğun olduğu"na dair istinadlar isə reallığı əks etdirmir. ATƏT Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılmasının həvalə olunduğu yeganə təşkilat idi. Buna baxmayaraq, təşkilat illərdir davam edən Ermənistanın genişmiqyaslı qeyri-qanuni fəaliyyətinin qarşısının alınmasında əlini ağdan qaraya vurmayıb. Əksinə, legitim çağırışlarımıza məhəl qoymamaq və işğala əsaslanan status-kvoya göz yummaq təcrübəsi Ermənistanı daha da cəsarətləndirdi. ATƏT-in münaqişənin həllinin bir parçası olmaq şansı var idi. Əfsuslar olsun ki, bu şans Ermənistan tərəfindən törədilən maneələr və bir sıra iştirakçı dövlətlərin ona havadarlıq etməsi nəticəsində əldən verildi. Təşkilatda, Azərbaycanın postmünaqişə dövründə reabilitasiya məsələləri üzrə mövcud öhdəliklərinə müvafiq dəstək layihələri ilə bağlı müraciətinin cavablandırılmasına maneələr törədildiyini nəzərə aldıqda, bu təcrübə bu günədək davam edir".

* * *

Skopyedə ATƏT-in yarıtmaz fəaliyyətini təkcə Azərbaycanın nümayəndəsi tənqid atəşinə tutmadı. Öz çıxışında Rusiya XİN-in rəhbəri Sergey Lavrov bəyan etdi ki, ATƏT çərçivəsində yaradılan hər şey tam deqradasiyaya uğrayıb. S. Lavrov bunu ATƏT Nazirlər Şurasının Skopyedə keçirilən iclas çərçivəsində keçirilən mətbuat konfransında dedi. Bildirdi ki, Qərb ATƏT-i məhv edir: "Qərb bu uğursuz siyasətindən heç vaxt nəticə çıxarmayıb. Onlar indi də təşkilatı məhv etməkdədirlər".

Doğrudur, Rusiya xarici siyasət idarəsinin başçısı bu sözləri ATƏT-in Moskva ilə münasibətləri kontekstində dilə gətirib, amma bu qurumun "uğursuz siyasətindən nəticə çıxarmaması" qənaəti elə Azərbaycan üçün də keçərlidir.

Azərbaycan Ermənistanla mehriban qonşuluq münasibətləri qurmaq, iki suveren dövlət olaraq sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyində tam səmimidir. Sadəcə Ermənistan hakimiyyəti Cənubi Qafqazda çeşidli maraqlarını güdən kənar "dəstəkçilərin" fitvasına getməməli, məhz Azərbaycanın onun üçün yaratdığı tarixi şansından istifadə etməlidir. İrəvan, nəhayət, ona yalnız dividend gətirəcək sülhə gedən yolun Azərbaycan və Türkiyə ilə dialoqdan və normal münasibətlərin bərpasından keçdiyini anlamalıdır. Güvəndiyi və dəfələrlə aldadıldığı güclərin qarşıdurmaya və sülhün ləngidilməsinə yönəlik "vasitəçiliyinə" yox deməyi bacarmalıdır. Əks-təqdirdə onların geosiyasi oyunbazlığı bu dəfə də Ermənistanın öz başında çatlayacaq.

**İmran BƏDİRXANLI**
**XQ**

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

Söhbət təkcə Azərbaycan–Ermənistan münaqişəsində ATƏT-in Minsk qrupunun heç bir müsbət fəaliyyətinin olmamasından getmir. Bu qurum bütün digər məsələlərdə də özünü faydasız və "dişsiz" təşkilat kimi göstərib. Əgər diqqət yetirsək görərik ki, məsələn, Ukraynada hərbi münaqişə davam edir, ATƏT kənardadır, Moldova bu günədək rus qoşunlarını öz ərazisindən çıxara bilmir, ATƏT qıraqdan baxır. Eyni problemi Gürcüstanın Abxaziya, Cənubi Osetiya bölgəsi ilə bağlı da müşahidə edirik. Həmin Kipr məsələsində ATƏT yenə seyrçi mövqeyindədir. Yəni, bu xarakterli bir çox məsələlərdə ATƏT faktiki olaraq bürokratik bir təşkilatdır. Bu təşkilatın baş ofisində üç minə yaxın insan yaxşı maaş alır, amma beş qəpiklik faydalı işi yoxdur.

Əlbəttə, məhz buna görə ATƏT-dən narazılıqların sayı artır. Artıq Avropanın bəzi böyük dövlətləri belə bir təşkilatın saxlanmasının kimə və nə verdiyi barədə suallar ünvanlayırlar. Bir vaxtlar təşkilatın egidası altında qitədə kütləvi silahların məhdudlaşdırılması ilə bağlı cinah sazişləri imzalandı. Fəqət həmin sazişlərə heç kəs əməl eləmir. Elə bu səbəbdən də ATƏT kəskin tənqid atəşinə tutulur. Bu təşkilatın bundan sonrakı aqibətinin necə olacağını söyləmək çətindir. Sadəcə, onun mövcud strukturlarını çağdaş dövrün tələblərinə uyğun yenidən formalaşdırmaq, düzgün istiqamətini müəyyənləşdirmək gündəlikdə duran məsələdir.

---

(əvvəli 1-ci səhifədə)

# Makrondan narazılıq getdikcə artır

## Fransızların 67 faizi onun problemlərin öhdəsindən gələ bilmədiyini düşünür

Sorğu nəticəsində məlum olub ki, E.Makronun hərəkətləri fransızların 67 faizi, o cümlədən, prezident fraksiyasının əsas potensial müttəfiqləri olan respublikaçılar tərəfindən bəyənilmir. Qəzet yazır ki, Makronun ikinci dəfə prezident seçilməsindən 18 ay keçməsinə baxmayaraq, o, hələ də fransızların etimadını qazana bilməyib. Əhalinin 67 faizi Makronun onları narahat edən problemləri həll edə biləcəyinə inanmır. Qeyd olunur ki, Makron prezident çoxluğunu genişləndirmək baxımından heç kimə arxalana bilməz. Onun düşərgəsinin güvəndiyi əsas siyasi qüvvə – respublikaçılar prezidentin hərəkətlərini qətiyyən dəstəkləmirlər. Belə ki, respublikaçıların 66 faizi Makrona güvənmədiyini bildirib.

Əminliklə demək olar ki, rəy sorğusunun nəticəsi obyektiv reallığı əks etdirir. Makron prezidentliyi dövründə bir sıra uğursuz qərarlar qəbul edib və yanlış addımlar atıb. Onun qərarları Fransanın beynəlxalq aləmdə nüfuzunun və rolunun azalmasına səbəb olub. Hazırda Fransa dünya miqyasında qəbul edilməyən tərəfdaşa çevrilib. Halbuki, Fransa bir vaxtlar dünyada gedən proseslərdə mühüm rol oynayırdı. Ölkə İkinci Dünya müharibəsindən qalib ayrılmışdı. Bu səbəbdən, onun beynəlxalq aləmdə mövqeləri də xeyli güclənmişdi. Fransa müharibənin başa çatmasından az sonra yaradılan BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri seçilmişdi. Böyük müstəmləkə ərazilərinə malik olan Fransa həm də bu səbəbdən özünün iqtisadi qüdrətini də xeyli artırmışdı. Xüsusilə Fransa müqavimət hərəkatının lideri general Şarl de Qollun ölkəyə rəhbərlik etdiyi illərdə Fransanın dünya birliyində xüsusi çəkisi artmışdı. Lakin sonradan həmin yüksəliş tədricən çöküşlə əvəzləndi.

Fransada sonuncu görkəmli dövlət başçıları Fransua Mitteran və Jak Şirak oldu. 2000-ci illərdən başlayaraq ölkəyə rəhbərlik edən şəxslərin prezidentlik müddətinin yarısında keçirilən rəy sorğularında nüfuzlarını itirdikləri məlum olur. Bunun nəticəsidir ki, 2000-ci ildən etibarən ölkəyə rəhbərlik edənlərdən heç birinə ikinci müddətə prezident kürsüsünə əyləşmək nəsib olmayıb. Belə ki, Nikola Sarkozi 2012-ci ildə keçirilən seçkilərdə məğlub olub. Fransua Olland isə məğlubiyyətin labüd olduğunu gördüyü üçün 2017-ci il seçkilərində iştirak etməyib. E.Makron 2022-ci ildə ikinci müddətə seçilsə də, onun prezidentliyi Fransanın mövqelərinin itirilməsinə yol açıb.



Hələ aprel ayında açıqlanan digər bir sorğuda "Beşinci Respublika"da vətəndaşların əksəriyyətinin Makrona pis münasibət bəslədiyi məlum olmuşdu. Sorğunun nəticələrinə görə, fransızların 65 faizi dövlət başçısının imicini mənfi hesab etdiyini bildirmişdi. Qeyd olunmuşdu ki, respondentlərin yalnız 30 faizi Makrona müsbət münasibət bəsləyir. Həmçinin məlum olmuşdu ki, fransızların 16 faizi dövlət başçısı haqqında düşünərkən ilk emosiya kimi nifrət hissi keçirir. Digər 16 faiz hirs, 13 faiz ikrah və 9 faiz laqeydlik hiss edir.

Eyni zamanda, fransızların 55 faizi hesab edir ki, Fransada azadlıqların səviyyəsi xeyli aşağı düşüb və Makron ilk prezidentlik dövrü ilə müqayisədə daha avtoritar liderə çevrilib. Sorğunun nəticələrinə görə, respondentlərin 69 faizi dövlət başçısının ədalətli olmadığına və digər siyasi mövqeləri nəzərə almadığına əmin olduqlarını bildirmişdilər.

Ümumiyyətlə, Makronun prezident seçilməsinin qəribə tarixçəsi var. 2017-ci ildə fransızlar yaxşı və pis arasından deyil, pislə ən pis arasında seçim etmək məcburiyyətində qalmışdılar. Makron həmin il cəmi 23,86 faiz səs toplamaqla birinci yeri tutaraq ikinci tura çıxmışdı. Onun namizədliyini Respublikaçı və Sosialist partiyalarından olan namizədlər – Fransua Fiyon və Benua Hamon dəstəkləmişdilər. Seçkilərin ikinci turunda Makron ifrat sağçıların lideri Marin Le Penlə rəqabət aparmış və ikiqat fərqlə qalib gələrək Fransa tarixinin ən gənc prezidenti olmuşdu. Müşahidəçilərin fikrincə, birinci turda zəif nəticə göstərən Makronun ikinci turda belə inamlı qələbəsi seçicilərin Le Penin qalib gələcəyi halda Fransanı təhdid edən qeyri-sabitlik qorxusu ilə izah olunurdu.

Makronun ikinci müddətə qatıldığı prezident seçkilərinin ilk turu 2022-ci il aprelin 10-da keçirilmişdi. Bu zaman heç bir namizəd mütləq səs çoxluğu əldə edə bilmədiyi üçün aprelin 24-nə ikinci tur təyin edilmişdi. İkinci turda ən çox səs toplayan namizədlər yenə Makron və Le Pen olmuşdu. Makron bu dəfə səsvermədə iştirak edənlərin 58,54 faizinin səsini qazanaraq dövlət başçısı kürsüsünü qoruyub saxlaya bilmişdi.

"Elabe" sosialoji xidmətinin 2023-cü ilin aprelində keçirdiyi sorğunun nəticələrinə görə, fransızların 69 faizi Makronun 2022-ci ildə yenidən prezident seçilməsindən peşmandır. Bir il əvvəl bu rəqəm 14 faiz az idi. Əhalinin 68 faizi Fransa prezidentinin hərəkətlərindən məyus olduğunu bildirib. Bu rəqəm "sarı jiletlilər"in genişmiqyaslı etirazları dövrünün səviyyəsinə yaxındır. Vətəndaşların yalnız 12 faizi Makronun işindən razılıq ifadə edib.

Makronun prezidentliyi dövründə Fransa tarixində "Sarı jiletlilər" hərəkatı yaşanıb. Bu, ölkədə 2018-ci ilin sonunda meydana çıxan, aydın lideri olmayan kortəbii etiraz hərəkatıdır. Hərəkat aksiya iştirakçılarının üzvlərini müəyyən etmək üçün geyindikləri sarı jiletlərə görə belə adlandırılıb. Əvvəlcə bu nümayişlərə səbəb prezidentin karbon yanacağına, əsasən də dizelə vergini artırmaq niyyəti olub. İştirakçıların tələbləri daha sonra geniş spektrli digər sosial və iqtisadi tələbləri əhatə edib. Hərəkat tez bir zamanda geniş vüsət alıb və bütün ölkəyə yayılıb. Makron 2018-ci il dekabrın 10-da "sarı jiletlilər"in kütləvi etirazları fonunda ölkədə iqtisadi və sosial sahədə fövqəladə vəziyyətin olduğunu bəyan edib. Həmin gün o, hökumətin bir sıra güzəştlərə gedəcəyini açıqlayıb. Ancaq buna baxmayaraq, "sarı jiletlilər" etirazları davam etdirmək qərarına gəliblər. Hərəkat bu gün də ara-sıra Paris küçələrində aksiyalar keçirməkdədir.

Prezident Makronun dövründə Fransa xarici siyasətdə uğursuzluğa düçar olmaqdadır. Təsadüfi deyil ki, Paris Afrikada nüfuz dairəsini Rusiyaya, Çinə təhvil verərək geri çəkilir. Müsəlman ölkələrinin bir çoxunda, o cümlədən, Şimali Afrika dövlətlərində Parisdən narazılıq açıq ifadə olunmaqdadır. Fransız diplomatlar da prezidentin fəaliyyətindən narazıdırlar. "Le Figaro" qəzeti yazır ki, diplomatlar Makronun Yaxın Şərq siyasətindən məyusdurlar. Elə bu səbəbdən Yaxın Şərq və Afrika bölgəsində çalışan bir qrup səfir Makronun Yaxın Şərq siyasətindən təəssüfləndiklərini bildirmək üçün birgə müraciət imzalayaraq onu Fransa Xarici İşlər Nazirliyinə göndərib. Müraciəti 10 səfir imzalayıb.

Fransanın dünyada, xüsusən də İslam dininə etiqad edən ölkələrdə sürətlə nüfuzdan düşməsinin bir səbəbi də Makronun yürütdüyü islamofob siyasətlə bağlıdır. Fransada neokolonializmlə yanaşı, islamofobiya və irqi ayrı-seçkilik geniş vüsət alıb. Fransa cəmiyyətindəki Yaxın Şərq və Afrika mənşəli insanların bir çoxu müxtəlif formada təzyiq və ayrı-seçkiliyə, irqçi hücumlara məruz qalırlar. Fransa qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan çıxarılması onun Afrikadakı neokolonialist, həmçinin islamofob siyasətinin nəticəsidir. Ümumiyyətlə, Makron prezident seçiləndən sonra Fransada xoşagəlməz halların sayı günü-gündən artmaqdadır. Halbuki, Avropa İttifaqının aparıcı dövlətlərindən biri, milli devizi "Azadlıq, bərabərlik, qardaşlıq" olan Fransanın 68 milyon nəfərə yaxın əhalisinin 7-9 faizi İslam dininə etiqad edənlərdir. Fransada 5,7 milyondan çox müsəlman yaşayır. Bu, bütün Avropa ölkələri arasında ən yüksək göstəricidir. İslam dini tərəfdarlarının sayına və əhəmiyyətinə görə Fransada ikinci, böyümə sürəti baxımından isə birincidir. Ancaq E.Makron bu gerçəkliyi nəzərə almır və yürütdüyü siyasətində korrektələr etmək istəmir.

İndi isə Makronun öz ölkəsinin əhalisi arasında da nüfuzunu sürətlə itirdiyi məlum olur. Fransa Prezidentinin bu cür narazılıq dalğası fonunda vəzifəsində sonadək qalacağı suallar doğurur. Fransa tarixinə ən uğursuz, yarıtmaz idarəçilik illəri "bəxş edən" Makronun impiçmenti məsələsinin artıq daha çox insan tərəfindən gündəmə gətirilməsi bu mənada təsadüfi hesab olunmamalıdır.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**politoloq**

Açıqlanan sorğunun nəticəsi fransızların dövlət başçısından razı olmadığını göstərir. Fransa Makron iqtidarının "sayəsində" Avropada insan hüquq və azadlıqlarının kobud şəkildə pozulduğu ölkələr sırasında liderlik edir. Faktlar da bunu təsdiqləyir. Ölkə mediası, siyasətçilər, müxtəlif araşdırma mərkəzləri bu təhlükənin artdığını narahatlıqla ifadə edirlər. Nəticə budur ki, Makron "Beşinci Respublika"nın tarixinə ən uğursuz idarəçi kimi düşüb.

Bundan əlavə, ölkədə miqrantlara qarşı zorakılıq, antisemitizm halları güclənib. Nifrət zəmininde cinayətlərin sayı artıb. Ölkənin müsəlman əhalisinə, Afrika əsilli vətəndaşlara, digər etnik və dini qruplara münasibətdə ayrı-seçkilik halları kəskinləşib. İslam dini ilə bağlı qadağalar daha sərtdir. Hökumət baş verənlərdən nəticə çıxarmaq əvəzinə, qərəzli və birtərəfli mövqe ortaya qoyur. İrəvanı silahlandırmaq kimi riyakar siyasət yürüdən Makron iqtidarı regionda gərginliyin artmasına, Ermənistanda revanşizmin güclənməsinə xidmət edir. Ancaq onun ölkə daxilində siyasəti uğursuz olduğu kimi, xarici siyasəti, o cümlədən, Ermənistan–Azərbaycan münasibətlərində oynadığı destruktiv rol da uğursuzluğa məhkumdur.

# Mirzoyanın ATƏT forumundakı çıxışı – avantürizm üçün növbəti manipulyasiya

## Ermənistanın baş diplomatı ölkəsinin Azərbaycanla sülhə gəlməkdən uzaq olduğunu göstərib

**Ermənistan rəsmiləri bir tərəfdən Azərbaycanla sülhə hazır olduqlarını, ölkəmizin ərazi bütövlüyünü tanıdıqlarını bildirir, digər yandan isə anti-Azərbaycan təbliğatı aparır, müxtəlif "tələblər" və "təşəbbüslər" irəli sürürlər. Sözlərindən belə çıxır ki, ərazilərimiz üzərindəki suveren hüquqlarımızı qəbul etmək niyyətindən uzaqdırlar. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ATƏT-in Nazirlər forumundakı çıxışı da bunu deməyə əsas verir.**



A.Mirzoyanın həmin forumdakı çıxışının ilk cümləsi belə olub: "Azərbaycan vasitəçilərin görüşmək və sülh müqaviləsi bağlamaq təklifini rədd etməyi dayandırsın". Görəsən, ölkəmiz nə zamansa bildiribmi ki, sülh danışıqlarını dayandırıb? Mirzoyanın haqqında söz açdığı vasitəçilər isə özlərinin aşkar ermənipərəstliklərini göstəriblər. Onların, belə demək mümkünsə, düz yola qayıtmaları şərtdir. Digər yandan, Bakı İrəvana birbaşa danışıqlar aparmağı təklif edib. Ancaq digər erməni rəsmiləri kimi, Mirzoyanın da sözlərindən gəlinən qənaət budur ki, Ermənistan yanında vasitəçilər görmək istəyir. Yaxud, vasitəçilərsiz danışıq aparmayacaq. Nə üçün? Halbuki, niyyəti sülh olan belə davranmamalı, səmimiyyət nümayiş etdirməlidir. A.Mirzoyanın fikirlərində isə səmimiyyətdən əsər-əlamət yoxdur.

Bəli, mötəbər toplantıdakı çıxışının ilk cümləsindəcə Azərbaycanı qaralayan A.Mirzoyan ardınca ATƏT-i gözdən salmağa girişib. Əlbəttə, bu məqamda onu, müəyyən mənada, haqlı saymaq mümkündür. O anlamda ki, həmin ATƏT-in Minsk qrupu otuz ilə yaxın müddətdə Bakı ilə İrəvan arasında vasitəçilik etdi. Bu "missiya" Azərbaycan torpaqlarının işğalda qalmasını leqallaşdırmaqdan başqa bir şey olmadı. İndi ermənipərəstliyin əvvəlki məcradakı davamı mümkünsüzdür. Ona görə Mirzoyanın "ATƏT sürətlə geriləyir" fikrində də, onun təşkilatın münaqişələrin qarşısını ala bilmədiyini söyləməsində də reallıq var.

***

Ermənistanın XİN rəhbəri bu məsələdə də haqlıdır ki, Qarabağ münaqişəsinin təzahürlərində nifrət və ksenofobiya olub. Ancaq o, bir balaca insaflı davranıb ermənilərin vaxtilə bölgədə etnik millətçiliyi, separatçılığı və ekstremizmi qızışdırdıqlarını vurğulaya bilərdi. Amma vurğulamadı. Onu da deyə bilərdi ki, ksenofobiya və nifrət Azərbaycana qarşı ərazi iddiasına əsaslanmışdı. Lakin demir və bildirir ki, bu il münaqişə son mərhələsinə çatıb. O, öz aləmində prosesin məcrasına da aydınlıq gətirib. Yenə anti-Azərbaycan ritorikasını işə salaraq bildirib ki, doqquz aydan çox davam edən qeyri-insani blokadadan sonra, Azərbaycan sentyabrın 19-da Qarabağ əhalisinə qarşı növbəti irimiqyaslı hərbi hücum həyata keçirib, bu isə yerli əhalinin Qarabağdan kütləvi şəkildə məcburi köçürülməsi reallığını doğurub: "Demək olar ki, beynəlxalq ictimaiyyətin susqun razılığı ilə Azərbaycan çoxdankı məqsədinə – erməni əhalisi olmadan Qarabağ ərazisini əldə etməyə nail olub".

Deyəsən, Mirzoyanın hədəfi yalnız ATƏT deyil. O, Qarabağdakı erməni avantürizminin qürubuna görə bütövlükdə beynəlxalq ictimaiyyəti günahlandırır və sözünün əvvəlində sülhdən söz açan erməni nazir əlavə edir ki, hazırda Azərbaycanın hədəfi suveren Ermənistandır. Guya, sülh danışıqları aparmaq istəməyən ölkəmiz Ermənistanın ərazilərinin işğalına hazırlaşır. XİN rəbərinin başından yekə ən böyük qələti isə onun "Azərbaycanın Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında maraqlı deyil" şəklində fikir bildirməsidir. Sən demə, Azərbaycanın sülhə sadiqliyi, İrəvan tərəfindən bütün platformalarda yerli-yersiz irəli sürülən üç prinsip üzrə sülh müqaviləsinin imzalanması üçün danışıqlara başlanılmasıdır. Söhbət 1991-ci ilin Alma-Ata Bəyannaməsinə əsasən qarşılıqlı şəkildə ərazi bütövlüklərinin tanınmasından, sabiq SSRİ-nin Baş Qərargahının 1974–1978-ci illərdəki xəritələrinə uyğun şəkildə dövlət sərhədlərinin delimitasiya və demarkasiyasından, eyni zamanda, ölkələrin suverenliyinə və yurisdiksiyasına tam hörmət, habelə bərabərlik və qarşılıqlılıq prinsipləri ilə bütün nəqliyyat kommunikasiyalarının açılmasından gedir.

***

Əlbəttə, Ermənistan XİN rəhbərinin söylədikləri mübahisəlidir. Birincisi, nəyə görə 1974–1978-ci illərin xəritələri əsas götürülməlidir? Yalnız ona görə ki, onlar, Mirzoyanın iddia etdiyi kimi, ən son xəritələrdir? Bəs, əvvəlki dövrün xəritələri necə olsun? Nəyə görə onlara da nəzər salınmasın? Əslində, sualların cavabı aydındır. Məsələ burasındadır ki, əzəli Azərbaycan torpaqlarında formalaşmış Ermənistan Respublikası sovet hakimiyyəti qurulduqdan sonra da Azərbaycandan ərazi qəsb etmişdi. Sovet rəhbərliyi respublikamızın digər əraziləri ilə Naxçıvanı birləşdirən zolağı Ermənistan SSR-ə peşkəş etmişdi. Bu, 1974-cü ilə qədərki xəritələrdə əksini tapmadığından, rəsmi İrəvan həmin ildən sonrakı xəritələr üzərində dayanır.

Başqa bir məqama diqqət yetirək. Əgər 1991-ci ilin Alma-Ata Bəyannaməsi SSRİ tərkibindəki respublikaların ərazilərinin qarşılıqlı şəkildə tanınması prinsipini rəhbər tutmuşdusa, yəni burada bir ölkənin dağılmasından sonrakı düzən əsas götürülmüşdüsə, o zaman həmin ölkənin formalaşdığı zamana da diqqət yetirilməsi vacib deyilmi? SSRİ 1923-cü ildə yaranmışdı. Prinsipcə, respublikalar SSRİ-yə hansı ərazilərlə daxil olmuşdularsa, həmin ərazilərlə də oradan çıxmalıdırlar. Bu, daha ədalətlidir, nəinki 1974-cü ilin xəritələrinə əsaslanmaq. Həm də nəyə görə SSRİ-nin yaranmasını təsdiqləyən xəritə deyil, ölkənin baş qərargahı adlı qurumun xəritəsi əsas götürülməlidir? Yəni, Mirzoyanın, eləcə də rəsmi İrəvanın digər təmsilçilərinin "ən son xəritə" deyib 1974-cü ilin xəritəsinin üzərində dayanmalarında məntiq yoxdur.

***

Azərbaycan üçün əsas məsələ digər ərazilərimizin Naxçıvanla quru əlaqəsinin təmin olunmasıdır. Prezident İlham Əliyev 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata məhz həmin müddəanın daxil edilməsinə nail olub. Sənədə 44 günlük müharibədə məğlubiyyətə uğramış ölkənin rəhbəri – baş nazir Nikol Paşinyan imza atıb. Həmin imza öhdəlik müəyyənləşdirir. Öhdəliyə əsasən İrəvan yola təminat verməlidir. Yolda təhlükəsizliyə cavabdeh isə Rusiya Federal Təhlükəsizlik Xidməti olmalıdır. Yəni, üçtərəfli Bəyanatda Ermənistanın suveren hüquqları ilə bağlı heç bir şey yoxdur. Belə bir durum isə tam ədalətlidir. Həm də ona görə ki, Nxçıvana yol qismən də olsa, müttəfiq respublika kimi Azərbaycanın SSRİ-yə daxil olduğu dövrdəki ərazisini əks etdirir. Ermənistanın yayındığı elə budur və buna qarşılıq İrəvan "Dünya kəsişməsi" təşəbbüsünü ortaya atır. Mirzoyan da ATƏT-in forumundakı çıxışında bu "təşəbbüsdən" danışdı.

***

Bəli, "Dünya kəsişməsi" layihəsi Zəngəzur dəhlizi ideyasına alternativ qismində irəli sürülür. Deməli, ölkəmizlə sülhdən danışan erməni XİN rəhbəri bu məsələdə də Azərbaycana qarşı çıxır. Çıxır və bildirir ki, "Dünya kəsişməsi" layihəsi regionda iqtisadi və mədəni əlaqələrin gücləndirilməsinə şərait yaratmaqla yanaşı, münaqişələrin həlli və region ölkələri arasında dialoqun təşviqinə yönəlib.

Əlbəttə, bütün mümkün platformalarda anti-Azərbaycan mövqe tutan Ermənistan rəhbərliyində təmsil olunan şəxslərin gəlişigözəl fikirləri tam mənasızdır. Çünki ölkə rəsmiləri üçün sözdən, imzadan, öhdəliklərin yerinə yetirilməsindən yayınmaq çox adi işdir. Məsələn, Mirzoyan sülh yolundakı addımlardan danışır, ancaq Azərbaycanın işğalda olan səkkiz kəndinin qaytarılmalı olduğunu dilinə gətirmir. O, eyni zamanda, münasibətlərin normallaşması prosesindəki humanitar məqam kimi, Azərbaycanda saxlanılan bütün erməni əsir və girovlarının qaytarılmasından, itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasından, bu, azmış kimi, Qarabağda və onun ətrafında erməni mədəni irsinin qorunması sahəsində əməkdaşlıqdan söz açır. Göründüyü kimi, aşkar manipulyasiyaya yol verir.

***

A.Mirzoyanın manipulyasiyasındakı digər hədəf Türkiyədir. Ermənistan XİN rəhbəri ATƏT-in forumundakı çıxışında "Dünya kəsişməsi" avantürasından söz açarkən, birdən-birə söhbəti qardaş ölkənin üzərinə gətirib. O, Ermənistan–Türkiyə sərhədlərinin açılmasından bəhs edib və sözlərindən belə çıxıb ki, bu məsələni də "Dünya kəsişməsi" ilə regionun yeni şəkillənməsinin tərkib hissəsi kimi görməkdədir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq Qələbədən sonra, Türkiyə–Ermənistan quru sərhədinin açılması məsələsində dinamizm müşahidə olunmaqdadır. Mirzoyanın dediyi kimi, ilkin mərhələdə sərhədin üçüncü ölkə vətəndaşları, habelə Ermənistanın və Türkiyənin diplomatik pasport sahibləri üçün açılması barədə razılıq da var. Ancaq erməni XİN rəhbəri həmin razılığın Ermənistana jest olduğunu unudur. Türkiyə bu jesti ona görə edib ki, İrəvan Bakı ilə düzgün keçinsin, özünün öhdəliklərinə əməl etsin. İrəvan öhdəliklərini "unudur", eyni zamanda, Türkiyənin jestini "Dünya kəsişməsi" təşəbbüsünün əhəmiyyətliliyi fonunda beynəlxalq tribunalara çıxarmaq yolunu tutur. Təxminən, belə bir mənzərə yaranır: qız evində toydur, oğlan evinin xəbəri yox.

***

Sonda bildirək ki, istər A.Mirzoyanın, istərsə də Ermənistanın mövcud iqtidarına məxsus digər şəxslərin Cənubi Qafqazda sülhün yaranmasının vacibliyinə fokuslanmış manipulyasiyaları bölgədə gerçək sülh mühitinin formalaşmasına ciddi ziyan vurur. Nəzərə alaq ki, manipulyasiyalar daim yeni nələrinsə tapılıb çıxarılmasına əsaslanır. Belə "dəstxətt" Azərbaycan tərəfinə çox yaxşı məlumdur. Buna görə də ən düzgün addım Ermənistanın sülh üçün nə qədər iradəli və qətiyyətli olduğunu sınağa çəkməkdir. Heç şübhəsiz, sınaq rəsmi İrəvanda yarpaq tökümü formalaşdırmalıdır. Yəni, bütün avantürist niyyətlər kənara qoyulmalı, imitasiyalardan uzaq durulmalıdır. A.Mirzoyanın ATƏT-in toplantısındakı çıxışı göstərdi ki, Ermənistan mövcud istiqamətdə hələ yol getməlidir. Yol getməlidir ki, onda sülhə səmimi sadiqlik yaransın. Ya da...

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Qriqoryan ABŞ-a gedir

## Bakının prinsipiallığı və İrəvana "gerçəyi başa salmaq" zərurəti

**(əvvəli 1-ci səhifədə)**

Heç şübhəsiz, A.Qriqoryan Vaşinqtona çağırılır. Yəni, burada söhbət heç də Ermənistan–ABŞ əlaqələrinin müzakirəsindən getmir. Çağırılır ki, ona Birləşmiş Ştatların Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsindəki son mövqeyi ilə bağlı məlumat, eyni zamanda, müvafiq təlimatlar verilsin. Başlıca məsələ də həmin məlumat və təlimatların nədən ibarət olmasıdır.

***

Qeyd edək ki, ötən həftə Azərbaycan–ABŞ münasibətlərində gərginlik müşahidə edilmişdi. Bu durum Birləşmiş Ştatlar Konqresinin aşağı palatası sayılan Nümayəndələr Palatasında Qarabağ dinləmələrinin keçirilməsi ilə bağlı idi. Onu da deyək ki, həmin dinləmələr başdan-ayağa anti-Azərbaycan ritorikasına əsaslanmışdı. Hətta, belə görüntü formalaşmışdı ki, Vaşinqton Bakı ilə münasibətlərinə tamamilə xitam verəcək. Durumu gərginləşdirən faktor yalnız məlum dinləmələr və onların gedişində Azərbaycana ABŞ-ın dövlət yardımının dayandırılması, mövcud xüsusda Azadlığa dəstək aktına 907-ci düzəliş ilə bağlı müzakirələr deyildi. Başlıca məqam həmin dinləmələrdə Birləşmiş Ştatların dövlət katibinin köməkçisi Ceyms O'Braynın bildirdikləri idi. Cənab O'Brayn çox amirənə tərzdə demişdi ki, Azərbaycana qarşıdakı iki həftə müddətində vaxt verilib. Onun sözlərindən belə çıxmışdı ki, Bakı Ermənistanla sülh müstəvisində Qərbin şərtlərini qəbul etməlidir. Əks halda, onunla bütün sferalarda əməkdaşlıq təhlükə altına düşəcək.

O'Brayn bir qədər də "irəli gedərək" vurğulamışdı ki, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolu Ermənistan ərazisindən, ölkənin suveren hüquqları nəzərə alınmaqla, keçməlidir, ən əsası isə Vaşinqton Bakının həmin yolun İrandan keçməsinə dair təşəbbüsünü dəstəkləmir. Nəinki dəstəkləmir, O'Braynın sözlərindən belə təəssürat yaranmışdı ki, Ağ Ev Azərbaycanın istəyini, bir növ, süngü ilə qarşılayacaq.



***

Əlqərəz, ABŞ Dövlət Departamentinin ali rütbəli təmsilçisinin fikirləri Azərbaycana demarş kimi qiymətləndirilmişdi. Bu hadisə isə Ermənistanda, sanki toy-bayram kimi qarşılanmışdı. Hətta, baş nazir Nikol Paşinyana məxsus siyasi çevrələr məsələni həm də Qarabağ münaqişəsi ilə bağlı özlərinə xeyir verəcək dönüş nöqtəsi qismində qiymətləndirməyə girişmişdilər. Əlbəttə, belə qiymətləndirmələr, eləcə də O'Braynın fikirlərinin özü Azərbaycanın prinsipial mövqeyindən geri çəkilməsinə hesablanmışdı.

Lakin həmişəki kimi, gözləntilər özünü doğrultmadı. Əksinə, Azərbaycan qətiyyəli mövqeyində sadiq qaldı. Eyni zamanda, ölkəmiz müvafiq addımlar atmağa başladı. Mövcud xüsusda ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin – USAID-in Azərbaycanda gördüyü işlərin şübhələndirildi. Əlbəttə, qurumun illərdir ölkəmizdə apardığı anti-milli fəaliyyətin ayrı-ayrı təzahür formaları əvvəldən də məlum idi və heç şübhəsiz, buna qarşı tədbirlər onsuz da həyata keçiriləcəkdi. Lakin Birləşmiş Ştatların tutduğu mövqe məsələyə daha operativ və həssas yanaşılmasını zəruriləşdirdi. Həm də ona görə ki, O'Brayn yolverilməz ritorikaya baş vurmuş, Azərbaycanın müstəqil dövlət kimi varlığını şübhələndirmək yolu tutmuş, hədə-qorxu gəlmişdi. Yəni, buna cavab gecikdirilə bilməzdi.

Onu da vurğulayaq ki, Azərbaycanın qətiyyətli mövqeyi Birləşmiş Ştatların əvvəlki yanaşmadan geri çəkilməsini dəyişməsi təəssüratını formalaşdırdı. ABŞ rəsmilərinin sonrakı açıqlamaları belə düşünməyə əsas verdi ki, Birləşmiş Ştatlar kollektiv Qərbin Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi ilə bağlı missiyasını yenidən "diriltmək" niyyətindədir. Bunu əvvəlcə Birləşmiş Ştatların Dövlət Departamentinin sözçüsü Metyu Millerin açıqlaması, sonradan isə Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə zəngi və telefon danışığı zamanı müzakirə olunan mövzularun dairəsi də təsdiqlədi.

Əlbəttə, bütün bunlar Ermənistanda sarsıntı və isterik durum doğurdu. Ölkədə hakimiyyətə yaxın bəzi siyasilərin fikirlərində, hətta Vaşinqtona yönəlik ittihamlar da özünü göstərməyə başladı. Bundan başqa, erməni müxalif kəsim ABŞ–Azərbaycan gərginliyinin, necə deyərlər, gözdən pərdə asmaq niyyəti daşıdığını, ikincinin birinci üçün Ermənistandan qat-qat strateji əhəmiyyətə malik olduğunu vurğulamağa başladı. Yayılan fikirlərdə, həmçinin, bildirildi ki, Birləşmiş Ştatlar Bakının mənafeləri naminə Ermənistanı tam şəkildə qurban verməyə hazırdır...

Hər halda, hazırkı durum onu göstərir ki, ABŞ Azərbaycanla münasibətləri gərginləşdirməkdən uzaqdır. İndi Birləşmiş Ştatlarda nə məlum 907-ci düzəlişin qüvvəsinin dayandırılmasının aradan qaldırılmasından söhbət açan var, nə də sıraya düzülüb növbə ilə danışırmışlar kimi təəssürat yaradan, biri-birini təkrarlayan mənasız konqresmenlərin anti-Azərbaycan məntiqinin ayrı-ayrı "təzahür formalarından". Sanki qurbağa gölünə daş atılıb.

***

Bəli, A.Qriqoryan ABŞ-a məhz bu şəraitdə səfər edir. Onun Birləşmiş Ştatların siyasi dairələri ilə bağlılığını, belə demək mümkünsə, ölkənin emissarı olması reallığını nəzərə alsaq, heç şübhəsiz, Vaşinqtonda təhlükəsizlik şurasının katibinə, necə deyərlər, həyatı başa salacaqlar. Mövcud xüsusda irəli sürülən fikirlərdə vurğulanır ki, Birləşmiş Ştatlar MDB dövlət başçılarının dekabrın sonunda Sankt-Peterburqda keçiriləcək ənənəvi qeyri-formal görüşünədək, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması müstəvisində əsaslı irəliləyişə nail olmaq niyyətindədir.

ABŞ Cənubi Qafqazda sülh gündəliyi müstəvisində irəliləyişə həm də ona görə nail olmaq istəyir ki, Ermənistan hakimiyyətinə bir o qədər etibar etmir. Vaşinqtonda baş nazir Nikol Paşinyanın MDB-nin qeyri-formal sammitində iştirakının sülh ritorikasına Qərbə sərf etməyən elementlər qazandıracağından ehtiyatlanırlar. Ona görə də var gücləri ilə duruma təsir göstərməyə çalışırlar. Deməli, A.Qriqoryanın tez-tələsik Birləşmiş Ştatlara çağırılmasının səbəbini bu amildə axtarmaq zərurəti yaranır. Görünür, ABŞ-da yaxşı başa düşürlər ki, indiki vəziyyətdə Qərbə Cənubi Qafqaz müstəvisində sərfəli hansısa nəticənin əldə edilməsinin yolu, Ermənistana siyasi sərmayə yatırmaqdan keçmir. Deməli, İrəvan Bakının şərtlərini qəbul etməyə razı salınmalıdır.

***Ə.RÜSTƏMOV***
***XQ***



# Azərbaycanı tərəqqiyə qovuşduran lider

**Az-az xalqlar və millətlər öz ölkələrinin, bütövlükdə bəşər tarixinin inkişafında və tərəqqisində müstəsna rol oynayan nadir tarixi şəxsiyyətlər yetişdirə bilir. Xoşbəxtlikdən, qədim və şanlı tarixə, zəngin mədəniyyətə, yüksək mənəviyyata sahib olan Azərbaycan xalqı bu sahədə ən yaxşı mənada seçilir. Belə ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı XX əsr dünya siyasəti tarixinə qızıl hərflərlə yazılmışdır. Bu, danılmaz bir həqiqətdir və qədirbilən nəsillər bununla hər zaman sonsuz qürur duyacaqdır.**

Mən dahi siyasətçi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Quba rayonunda bir çox rəhbər vəzifələrdə çalışmışam. Uzun illər rayonumuzda Ulu öndərin adını daşıyan muzeyə rəhbərlik etmişəm. Böyük dövlət adamı olan Heydər Əliyev Azərbaycanın hər bir bölgəsi kimi, Quba rayonunun da sürətli iqtisadi və mədəni inkişafına diqqət və qayğı göstərmişdir. Rayonumuzun əhalisi bu qayğını heç vaxt unutmur, Ulu öndərin xatirəsini daim əziz tutur.

Mən dəfələrlə Heydər Əliyevin iştirakı ilə keçən mühüm tədbirlərdə, görüşlərdə iştirak etmişəm. Bu böyük şəxsiyyətə qəlbimdə sonsuz məhəbbət yaranmışdır. Demək istəyirəm ki, böyük Yaradan Ümummilli liderə yüksək insani keyfiyyətlər bəxş etmişdir. Dərin zəkası, qeyri-adi idarəçilik bacarığı, hadisələri qabaqcadan duymaq və düzgün məcraya yönətmək səriştəsi, sarsılmaz polad iradəsi, simasındakı təbəssüm, yeri gələndə ümumi mənafe naminə sərtlik və istisnasız olaraq bütün hallarda ədalətlilik Heydər Əliyevi səciyyələndirən əsas cizgilər idi.

O, birmənalı olaraq siyasət elminin dahisi idi. Ümummilli liderin həyat və əmək fəaliyyətinin hər bir anı Azərbaycan dövlətinə və xalqına dərin sədaqətin parlaq nümunəsi olmuşdur. Heydər Əliyev hər yerdə və hər zaman canından çox sevdiyi xalqının, Azərbaycan dövlətinin maraqlarını hər şeydən uca tutmuşdur. Tarixdə onun qədər cəmiyyətin tərəqqisi üçün tükənməz bir enerji ilə çalışan dövlət xadimi tapmaq çox çətindir. Bu dahi şəxsiyyət ən mürəkkəb zamanlarda mümkün olmayanı mümkün etməyi bacarırdı. Onu yaxından tanıyanlar dahi siyasətçinin yüksək işgüzarlığına və tükənməz enerjisinə heyran qalırdılar.

Heydər Əliyevin müdrik liderliyi ilə Azərbaycan keçmiş ittifaqda ən qabaqcıl mövqelərə çata bilmişdir. Bu böyük şəxsiyyətin zəngin siyasi, mədəni və mənəvi irsinə nəzər saldıqda, hər birimiz respublikamızda milli şüurun oyanışının, azərbaycançılıq, müstəqil dövlətçilik ideyasının inkişaf etdirilməsinin şahidi oluruq. Xüsusi vurğulamaq istəyirəm: həmin dönəmdəki bütün uğurlar, ilk növbədə, bu görkəmli siyasətçinin adı ilə bağlı olmuşdur.

1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmiş Heydər Əliyevin respublikanı düşdüyü geriliklərdən xilas etmək üçün həyata keçirdiyi cəsarətli addımlar hamını heyrətə gətirirdi. Sirr deyil ki, mərkəzdə buna qısqanclıqla yanaşanlar var idi. Lakin Heydər Əliyev Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə öz qətiyyətli və prinsipial siyasətindən bir addım belə geri çəkilmirdi. Onun liderliyi ilə Azərbaycan bütün sahələrdə bir-birindən parlaq uğurlar əldə edirdi. Bu gün bütün bunlar bir kino lenti kimi mənim gözlərimin önündən keçir. Bu an qəlbimdən bir nida qopur: Heydər Əliyev Azərbaycanın şanını, şöhrətini zirvələrə qaldıran liderdir. Allah bu böyük insana qəni-qəni rəhmət eləsin!

Heydər Əliyev Azərbaycan gənclərinə və gəncliyinə dərin inam bəsləyirdi. Ulu öndər istedadlı gənclərin yüksək enerji və bacarıqlarını xalqımızın sürətli inkişafı üçün böyük uzaqgörənliklə müəyyən etdiyi mühüm hədəflərə yönəldirdi. O illərdə vətənpərvər və təşəbbüskar gənclər cəmiyyətin əsas hərəkətverici qüvvəsinə çevrilmişdilər. Azərbaycan gəncliyi Heydər Əliyevin şəxsiyyətindən böyük ilham alırdı! Təleyimə sonsuz dərəcədə minnətdaram ki, mən o şanlı günlərin canlı şahidi olmuşam!

Ümummilli lider böyük mənəviyyat insanı idi, Azərbaycan dilinin və ədəbiyyatının vurğunu idi. Səməd Vurğunun "Azərbaycan" şeirini söylərkən Ulu öndərin necə kövrəldiyinin hər birimiz şahidiyik. Ana dilimizə böyük məhəbbətlə yanaşan Ulu öndərin bu istiqamətdəki fəaliyyəti sayəsində 1978-ci ildə Azərbaycan dili dövlət dili statusu qazandı. İttifaq məkanında Azərbaycan yeganə müsəlman respublikası idi ki, Konstitusiyasında milli dil dövlət dili kimi təsbit olunmuşdu. Bu faktla necə qürur duymamaq olar?!

Heydər Əliyevin titanik səyləri sayəsində o dövrdə respublikamızda milli-mədəni intibahın yüksəlişi başlanmışdı. Ölkə əhalisinin ən geniş təbəqələrində milli adət-ənənələr haqqında dolğun bilgilər formalaşmışdı. Dahi rəhbər Azərbaycanın milli ruhlu ziyalılarını, istedadlı alim, şair və yazıçılarını hər zaman himayə edirdi. Bu, bir həqiqətdir ki, həmin illərdə totalitar rejimin təqib etdiyi milli düşüncəli ziyalılar Azərbaycanda müdafiə olunurdular. Xalqımız bunu görür və yüksək dəyərləndirirdi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri hərbi sahədə milli kadrların yetişdirilməsi idi. 1972-ci ildə Bakıda onun təşəbbüsü ilə C.Naxçıvanski adına hərbi məktəb açılmışdır. Nəzərə alsaq ki, o dönəmdə keçmiş ittifaqda cəmi iki belə məktəb var idi, bunun nə qədər vacib və uzaqgörən addım olduğu bir daha məlum olur. Yeri gəlmişkən, xain ermənilər mərkəzə məktublar, teleqramlar göndərir, Bakıda sözügedən hərbi təhsil müəssisəsinin bağlanmasını və İrəvanda açılmasını tələb edirdilər. Lakin onlar öz bəd niyyətlərinə nail ola bilmədilər. Ona görə ki, qarşılarında dogma xalqı ilə nəfəs alıb - yaşayan Heydər Əliyev boyda yenilməz bir dağ vardı!

Ulu öndər hər zaman xalqının ən ağır, çətin günlərində onun yanında olub. Heydər Əliyev 1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəyə qarşı qətiyyətlə etirazını bildirdi. Dahi siyasətçinin haqq səsini bütün dünya eşitdi. Heydər Əliyev bir müddət sonra kəskin təzyiq və təqiblərə məhəl qoymadan əvvəlcə Bakıya, oradan da Naxçıvana gəldi. Burada insanlar onu böyük hörmət və ehtiramla qarşıladılar. Heydər Əliyev Naxçıvan Ali Məclisin sədri seçildi, bu qədim diyarda sabitliyin qorunması, düşmənin hücumlarının dəf olunması üçün əlindən gələni etdi.

1992–1993-cü illərdə AXC-Musavat cütlüyünün hakimiyyəti dönəmində ölkədə eləcə də Bakıda olduqca ağır ictimai-siyasi vəziyyət yaranmışdı. Düşmənlər məmləkətimizi parçalayıb məhv etmək istəyirdilər. Xalqımızın dəyərli ziyalıları başa düşürdülər ki, Azərbaycanı bu ağır vəziyyətdən yalnız Heydər Əliyev dühası xilas edə bilər. Əlbəttə, Ulu öndər dogma xalqını üzləşdiyi təhlükə qarşısında biçarə, tək qoya bilməzdi. 1993-cü ilin iyununda isə xalqın israrlı tələbi ilə o, Azərbaycanda siyasi hakimiyyətə qayıtdı. Həmin dönəmdən milli dövlətçiliyimizin etibarlı bünövrəsinin qurulması naminə böyük işlər görüldü.

O illərdə Azərbaycanda sabitliyi qorumaq, ölkənin milli təhlükəsizliyini möhkəmləndirmək, bütün sahələrdə ölkəmizin dinamik inkişafını təmin etmək, gənc, müstəqil dövlətin dünya ölkələri ilə sıx əlaqələrini qurmaq lazım idi. Düşmənlərimiz yatmamışdılar, ölkəmizin dirçəlməsini, güclənməsini istəmirdilər. Vaxt itirmək olmazdı. Bütün bu çətin vəzifələrin öhdəsindən dahi siyasətçi Heydər Əliyev böyük məharətlə gəldi. Onun təşəbbüsü və rəhbərliyilə Azərbaycan neftinin Qərbə ixracını təmin edən "Əsrin müqaviləsi"nə imza atıldı. Başqa böyük layihələrin uğurla həyata keçirilməsi üçün zəmin yaradıldı. Azərbaycanın təkcə siyasi deyil, iqtisadi müstəqilliyi də gücləndirildi. Düşmənlərin niyyətləri ürəklərində qaldı.

Müstəqil Azərbaycanda Heydər Əliyevin liderliyi ilə milli təhsilin inkişafına böyük diqqət və qayğı göstərildi. Ulu öndər millətin gələcəyinin təhsildən asılı olduğunu gözəl bildiyi üçün demişdir: "Dünyanın inkişaf etmiş ölkələrinin yüksək səviyyəli universitetlərinin, institutlarının imkanlarından Azərbaycanın gələcəyi üçün, dəyərli kadr hazırlanması üçün bundan sonra səmərəli istifadə etməliyik". Demək lazımdır ki, qısa müddət ərzində bu istiqamətdə konkret addımlar atıldı. Azərbaycan elmi dünya arenasına çıxmağa başladı, dövlətimizin himayəsindən bəhrələnən alimlərimiz böyük uğurlar qazandılar.

Azərbaycan mədəniyyətinin bugünkü yüksək səviyyəyə yüksəlməsində də Ulu öndərin misilsiz xidmətləri olmuşdur. Dahi siyasətçi dəfələrlə vurğulamışdır ki, hər bir xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Heydər Əliyev xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin qorunması, inkişafı və bütün dünyaya tanıdılması üçün əlindən gələni etmişdir.

Azərbaycan diasporunun güclənməsində də Ulu öndərin son dərəcə böyük əməyi olmuşdur. Dahi siyasətçi qeyd edirdi ki, Vətən yalnız insanların toplum şəkildə yaşadıqları coğrafi ərazi deyil, Vətən hər bir azərbaycanlının harada yaşamasından asılı olmayaraq, şan-şöhrəti, namusu, qeyrəti, əyilməz vüqarı, bəxti, taleyi, gücü, qüdrəti, əbədi səcdəgahıdır.

Heydər Əliyevin Dünya Azərbaycanlılarının I qurultayındakı parlaq çıxışı hər bir soydaşımızın qəlbində sonsuz coşqu yaratmışdı. Ulu öndər dərin məzmunlu çıxışını bu sözlərlə bitirmişdir:

"Əziz dostlar! Mən sizin hamınıza cansağlığı və səadət arzulayıram. Xarici ölkələrdən gəlmiş nümayəndələrdən və qonaqlardan xahiş edirəm ki, Azərbaycan xalqının, onun dövlətinin, Prezidentinin salamlarını, sevgisini, məhəbbətini bütün Azərbaycan icmalarına, hər bir azərbaycanlıya çatdırasınız.

Sizin hər birinizə işlədiyiniz sahədə, gördüyünüz işdə, yaşadığınız yerlərdə uğurlar arzulayıram. Harada yaşamasından asılı olmayaraq, hər bir ailəyə, hər bir azərbaycanlıya xoşbəxt həyat və xoşbəxt gələcək arzulayıram. Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin!"

2023-cü il Heydər Əliyev İlidir! Bir gözəl mahnıda deyildiyi kimi, nə qədər ki, Azərbaycan var, nə qədər ki, bu millət var, Heydər Əliyev daim var olacaq! Ulu öndərin əziz xatirəsi əbədi yaşayacaqdır. Bu, böyük bir həqiqətdir ki, Azərbaycanın bugünki sürətli inkişafı və tərəqqisində ulu öndərin zəngin siyasi və mənəvi irsi mühüm rol oynayır. Bu gün də belədir, sabah da belə olacaq. Heydər Əliyev ideyaları müstəqil Azərbaycanı parlaq gələcəyə aparan mayakdır!

Sevindirici haldır ki, Ulu öndərin müdrik dövlətçilik siyasəti Ümummilli liderin ən layiqli siyasi varisi Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən dünyanın çağdaş inkişaf proseslərinə uyğun şəkildə, yeni tarixi şəraitdə böyük uğurla həyata keçirilir. Azərbaycan hazırda sürətli inkişaf və intibah yolundadır!

Bəli, Azərbaycan bu gün dünyanın ən güclü və qüdrətli dövlətlərindəndir. Biz qalib, xoşbəxt xalqıq! Biz igid əsgər və zabitlərimizin əli ilə Şuşaya, Xankəndiyə milli bayrağımızı sancaraq, suverenliyimizi təmin edən dövlətik! Bu gün Ulu öndərin ruhu şaddır. Heydər Əliyevin xalqımıza əbədi minnət qoyduğu müstəqil Azərbaycan dövlətinə eşq olsun!

***Elə ORUCOVA,***
***ADPU-nun Quba filialının tarix, pedaqogika və sosial fənlər kafedrasının müəllimi, Əməkdar mədəniyyət işçisi***

# Regionlarda ali təhsilin uğurları və hədəfləri

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Regionlarda ali təhsil: reallıqlar və perspektivlər" mövzusunda III Beynəlxalq elmi konfrans keçirilib.**



Azərbaycan, Türkiyə, Rusiya, Moldova və Şimali Kiprin 9 universitetinin təmsilçilərinin iştirak etdiyi məclisin açılışında filialın direktoru dosent Yusif Alıyev qeyd edib ki, konfransın məqsədi regionlarda ali təhsilin və alimlərin tədqiqatçılıq bacarıqlarının inkişafını təmin etmək, beynəlxalq əlaqələrin qurulmasını sürətləndirmək, araşdırmalarda innovasiyanı gücləndirməkdir.

Plenar iclasda konfransın iştirakçı ölkələr üçün önəmi vurğulanıb, dəyərli mülahizələr səslənib.

Beynəlxalq elmi məclis bölmələr üzrə davam edib, müxtəlif məruzələr dinlənilib. Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

**Səadət ŞÜKÜRQIZI,**
**filialın əməkdaşı**

# Azərbaycan nümayəndə heyəti Həştərxanda

**Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Həştərxanda səfərdə olan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti bu şəhərdə Ulu öndərin adını daşıyan xiyabana gələrək onun abidəsini ziyarət edib. Abidənin önünə gül dəstələri düzülüb, onun əziz xatirəsi ehtiramla yad edilib.**



Sonra Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəb ziyarət edilib. Direktor Tatyana Tixomirova bildirib ki, yubiley tədbirləri çərçivəsində məktəbdə şeir, inşa və rəsm müsabiqələri keçirilib. O əlavə edib ki, bu təhsil müəssisəsi iki dövləti möhkəm tellərlə bir-birinə bağlayır.

Öz növbəsində, Həştərxan vilayəti hökumətinin sədr müavini İness Qorina Rusiya və Azərbaycanı bütün sahələrdə möhkəm və çoxillik münasibətlərin bağladığını vurğulayıb.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Ümummilli liderin adını daşıyan məktəbin əhəmiyyətini vurğulayaraq, bu təhsil müəssisəsinin Heydər Əliyevə həsr olunmuş tədbirlərdə fəal iştirakını qeyd edib. O bildirib ki, Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunması Həştərxan ilə Azərbaycan arasında mehriban qonşuluq əlaqələrinin genişləndirilməsinə öz töhfəsini verir.

Sonra Ulu öndərin 100 illiyinə həsr olunmuş tədbirlərdə fərqlənən müəllim və şagirdlərin mükafatlandırılma mərasimi keçirilib.

***

Səfər çərçivəsində Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin ilə görüşü olub.

İqor Babuşkin bu il vilayətdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş bir sıra təntənəli tədbirlərin keçirildiyini qeyd edib. İqor Babuşkin diqqətə çatdırıb ki, bu ay onun Azərbaycana səfəri və Prezident İlham Əliyev ilə görüşü gözlənilir.

Abdin Fərzəliyev qeyd edib ki, Həştərxanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş silsilə tədbirlərin keçirilməsi Azərbaycanda yüksək qiymətləndirilir və mehriban qonşuluq münasibətlərinin təzahürüdür.

O, Ulu öndərin xatirəsini əziz tutduqları üçün həştərxanlılara təşəkkürünü bildirib.

**XQ**

# "Freedom House" indi də separatizmin dəstəkçisi rolunda çıxış edir

**"Freedom House" 2023-cü il üzrə hesabatlarının ilkin variantlarını ictimailəşdirməyə başlayıb. "Qlobal demokratiya və azadlıqlar indeksi", "İnternet azadlığı indeksi" və digər bu kimi hesabatlar artıq təşkilatın veb-səhifəsində yerləşdirilib. Ayrı-ayrı ölkələrin "azad", "yarım-azad" və "qeyri-azad" kateqoriyalar üzrə təsnifatlaşdırıldığı bu hesabatlar hər il olduğun kimi, bu dəfə də ciddi etirazlara səbəb olub. İlk baxışdan görünür ki, təşkilatın apardığı "tədqiqatlar", hazırladığı təhlillər elmi metodologiyalara deyil, siyasi konyukturaya əsaslanıb.**



Diqqəti cəlb edən haldır ki, hesabatların hətta preambula hissəsində də Çinin, Rusiya və İranın adları çəkilir. Bu dövlətlər "bütün azadlıq indeksləri üzrə pis tendensiyaların yaradıcıları" kimi təqdim edilirlər. Bilinən faktdır ki, adları



çəkilən dövlətlər ABŞ-ın strateji planlarında hədəf seçilən, rəqib qismində görünən və "şər üçbucağı" adlandırılan ölkələrdir. Onlar eyni prinsip əsasında "Freedom House" tərəfindən də hədəfə alınırlar. ABŞ-ın siyasəti ilə uyğunlaşmayan bu və digər dövlətlər "qeyri-azad ölkələr" indeksi üzrə dəyərləndirilirlər.

Nümunə olaraq göstərdiyimiz bu detal "Qlobal demokratiya və azadlıqlar indeksi"nin obyektivliyini şübhəyə alan yeganə məqam deyil. "Freedom House" ABŞ-ın siyasi hədəflərinə uyğun davranışlarını davam etdirərək, mərhələ-mərhələ digər dövlətlərə də yer ayırır. Türkiyə başda olmaqla, Türk Dövlətlər Təşkilatına üzv olan ölkələri də özünün qarayaxma kampaniyasına məruz qoyur. Bu tendensiyanı isbatlayacaq nümunələr verməklə, vəziyyətə aydınlıq gətirək. Qeyd edək ki, Ermənistan "Qlobal demokratiya və azadlıqlar indeksi", həmçinin "İnternet azadlığı indeksi" üzrə 2-ci kateqiriyada, yəni, yarım-azad ölkələr sırasında yerləşdirilib. Türkiyə isə ondan geri pillədə - "azad olmayan" dövlətlər sırasında yer tutub. Türkiyəni Ermənistanla müqayisə etmək, Ermənistanı yüksək, Türkiyəni isə aşağı kateqoriyada göstərmək nümunəsi "Freedom House" tərəfindən hazırlanmış hesabatların gerçək məqsədini üzə çıxarır. Yeri gəlmişkən, qeyd edək ki, "Freedom House" tərəfindən hazırlanmış "İnternet azadlığı indeksi"ndə 100 ölkə arasında 39 ölkə qeyri-azad, 29 ölkə yarım – azad, 31 ölkə isə tam azad ölkə kimi göstərilib. ABŞ-ın merkantil maraqlarına rəqib olan dövlətlərin hamısı qruplaşdırılaraq, "39 qeyri-azad ölkə" kateqoriyasına sığışdırılıb.

"Freedom House" "internet azadlığı indeksi"ni 13 ildir təqdim edir. Hər dəfə də hansısa yeni maxinasiyası ilə diqqət çəkir. 2023-cü il hesabatı da bu baxımdan istisna deyil. Sonuncu hesabatın "özəl xüsusiyyəti" "Freedom House" tərəfindən etnik-separatizmin dəstəklənməsidir. Problem ondadır ki, 2023-cü il hesabatında "Dağlıq Qarabağ" Azərbaycandan ayrıca, əlahiddə qurum kimi qiymətləndirilir. Beləliklə, ABŞ-ın son bir il ərzində Azərbaycana qarşı həyata keçirdiyi təxribatçı siyasət "Freedom House" tərəfindən hazırlanan hesabatlarda da öz inikasını tapır. ABŞ Ermənistan–Azərbaycan münasibətlərinin "tənzimlənməsində" hansı maxinasiyaları tətbiq edirsə, "Freedom House" də "demokratik azadlıqlar indeksi"ndə eyni siyasəti təqib edir. "Dağlıq Qarabağ"ı əlahiddə subyekt kimi göstərməklə, Azərbaycanın ərazi bütövlüyünə qəsd edir. Ən acınacaqlısı odur ki, hesabatda "Dağlıq Qarabağ" təkcə ərazi baxımından deyil, həm də "demokratik azadlıqlar" konteksində Azərbaycandan qoparılır. Hesabatda Azərbaycan "qeyri-azad", "Dağlıq Qarabağ" isə "yarım-azad" ərazi kimi dəyərləndirilərək, Ermənistanla eyniləşdirilir.

Məlumat üçün qeyd edək ki, "Freedom House" təşkilatı Azərbaycanın öz müstəqilliyini elan etməsindən başlayaraq, bu günə qədər heç vaxt ölkəmiz barədə obyektiv rəy verməyib. ABŞ 1992-ci ildə "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəliş edib Azərbaycanın müstəqilliyini təhdid altına aldığı kimi, "Freedom House" da bu illər ərzində hazırladığı hesabatlarda qərəz büruzə verib. O, ABŞ-ın siyasi mərkəzləri ilə sinxron davranışlarını bu gün də davam etdirir.

Əslində, bu cür konyunkturlu davranışlarını heç gizlətmirlər də. "Freedom House" öz veb-səhifəsində qeyd edir ki, o, ABŞ-ın siyasi maraqlarının qlobal təbliğatçısı və təşviqatçısıdır. Bu təqdimat artıq hər şeyi deyir. "Freedom House" ərazisində yerləşdiyi dövlətin siyasi maraqlarından çıxış edərək rəylər, hesabatlar hazırlayır və yayır.

Əslində beynəlxalq təşkilat öz işini sifarişlərlə qurmamalıdır. Beynəlxalq təşkilat elan edibsə, müstəqilliyini qorumalı, obyektiv olmalı, gerçəkdən demokratik inkişaf, insan haqları, azadlıqlar uğrunda çalışmalıdır. Obyektiv hesabatlar hazırlamaq üçün, ilk növbədə, təşkilatın özü azad olmalıdır. Lakin gördüyümüz kimi, "Freeddom House" özü azad və müstəqil deyil. ABŞ siyasətinin bir qoludur. Onun hazırladığı "Qlobal demokratiya və azadlıqlar indeksi", həmçinin, "İnternet azadlığı indeksi" də azadlıqların dəyərləndirilməsi üçün meyar kimi qəbul edilə bilməz.

| | | | |
|---|---|---|---|
| Mozambique | 45 Partly Free | 14 | 31 |
| Myanmar | 9 Not Free | 0 | 9 |
| Nagorno-Karabakh* | 37 Partly Free | 17 | 20 |
| Namibia | 77 Free | 31 | 46 |
| Nauru | 77 Free | 34 | 43 |




| | | | |
|---|---|---|---|
| Armenia | 54 Partly Free | 23 | 31 |
| Australia | 95 Free | 38 | 57 |
| Austria | 93 Free | 37 | 56 |
| Azerbaijan | 9 Not Free | 2 | 7 |
| Bahrain | 12 Not Free | 2 | 10 |

TOP

**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

# Daşkənddə SPECA-nın Bakı zirvəsi müzakirə edilib

**Daşkənddəki Mərkəzi Asiya Beynəlxalq İnstitutunda "BMT-nin Mərkəzi Asiya iqtisadiyyatı üçün Xüsusi proqramın 25 illiyi: dayanıqlı inkişaf məqsədlərinə çatmaq yolunda regional tərəfdaşlığın perspektivləri" mövzusunda dəyirmi masa keçirilib.**



Məclisdə ötən həftə Bakıda SPECA dövlət və hökumət başçılarının qeyd edilən yubileyə həsr olunmuş Zirvə görüşünün yekunları müzakirə olunub. İnstitutun direktor əvəzi Fanil Kadırov bildirib ki, yüksək səviyyəli Bakı görüşündə proqramın üzvü olan dövlətlərin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistanın liderləri, Macarıstan və Gürcüstanın xüsusi dəvət olunmuş hökumət başçıları iştirak ediblər. Yubiley müzakirələrində BMT proqramın tarixi əhəmiyyəti və perspektivləri diqqət mərkəzində olub, yeni həhəflər müəyyən edilib.

Özbəkistan xarici işlər nazirinin müavini Babur Usmanov, institutun şöbə müdiri Zafar Nurmatov, Azərbaycanın Özbəkistandakı səfirliyinin müşaviri Mahir Cəfərov və başqaları SPECA-nın Bakıda keçirilən Zirvə görüşünün materialları təhlil edilib, Mərkəzi Asiya regionunun dünya birliyinə daha fəal inteqrasiyası ilə bağlı dəyərli mülahizələr səslənib. Dəyirmi masanın davamında regionlararası əməkdaşlığın inkişafı, bu birliyin qlobal əməkdaşlıq mərkəzinə çevrilməsi ətrafında müzakirələr aparılıb. İştirakçılar qeyd ediblər ki, Azərbaycanın sədrliyi zamanı üzv dövlətlərin regional əməkdaşlığı yeni mərhələyə qədəm qoyub.

Bildirilib ki, ötən 25 ildə SPECA proqramı çərçivəsində ticarət, kommunikasiya, nəqliyyat, su ehtiyatları, ekologiya, gender bərabərliyi və s. sahələrdə layihələr uğurla həyata keçirilib. Ticarətin asanlaşdırılması və innovativ inkişaf üzrə strategiyanın hazırlanması və qəbul edilməsi məsələsinə xüsusi diqqət yetirilib. Son 6 ildə Mərkəzi Asiyada baş verən köklü dəyişikliklər regionla Cənubi Qafqaz və Avropa ölkələri arasında münasibətlərin səmərəli qurulmasına imkan yaradıb. Azərbaycan və Özbəkistan prezidentləri müxtəlif istiqamətlər üzrə dövlətlərin birgə səylərinin gücləndirilməsi istiqamətində bir sıra təşəbbüslər irəli sürüblər.

Dəyirmi masada "yaşıl" iqtisadiyyat, innovasiya, yüksək texnologiyalar, loqistika, alternativ energetika, müasir sosial strukturun yaradılması barədə də fikir mübadiləsi aparılıb. Azərbaycan təmsilçisi "Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri İlqar Vəlizadə ölkəmizin SPECA proqramında fəal iştirakı ilə bağlı fikirlərini bölüşüb.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Daşkənd**



# Bəşəriyyəti 3 böyük təhlükə gözləyir

## Dünya şöhrətli filosofun proqnozları

**Ermənistanda keçirilən "Elm və biznes günləri – 2023" festivalının fəxri qonağı, dünya şöhrətli filosof, yazıçı və alim Nassim Taleb paytaxt İrəvanda mətbuat konfransı zamanı çıxış edərkən, dünyanı gözləyən 3 qlobal risk barədə proqnoz verib. Yeni epidemiyalar və ya maliyyə çöküşləri ilə bağlı sualı cavablandıran alim qeyd edib: "Mən bir neçə təhlükə və ya potensial inkişaf görürəm. Əvvəla, bu pandemiyadır. Pandemiyadan, hələ koronavirusdan əvvəl, "Qara qu quşu" kitabımda danışmışdım. Bunun böyük bir risk mənbəyi olduğunu gördük". Yazıçı gələcəkdə də müxtəlif epidemiyaların ola bilməsi ehtimalı üzərində dayanıb.**

N.Talebin ikinci risk proqnozu dünyadakı mövcud maliyyə sisteminin iflası ilə bağlıdır. "2008-ci ildə ABŞ-dakı böyük maliyyə böhranı insanların həyatına əksər əsas xəstəliklərdən daha çox mənfi təsir göstərdi. Bütün bunları yumşaltmaq, qarşısını almaq üçün tədbirlər görmək lazımdır", – deyə alim bildirib. Onun sözlərinə görə, hazırda ABŞ-da ən böyük risk ölkədə daşınmaz əmlak bazarının çökməsidir.

N.Taleb fikirlərini yekunlaşdıraraq belə qənaətə gəlib: "Birinci məqam pandemiya, ikincisi maliyyə böhranı, çöküş, üçüncüsü Qərb ölkələrinin borclarının getdikcə artan səviyyəsidir. İndi həmişəkindən daha çox borc var və keçmiş dövlət borcuna faizlər yığılır. Bu, dayandırılması çətin olan fırtınadır. Əgər sizə desələr ki, əsl risk Çin, Qəzza zolağı, Ukrayna ilə bağlıdır, bu, heç də belə deyil. Hesab edirəm ki, sadaladıqlarım özündə daha çox riski ehtiva edir".

**R.ƏVƏZ**
**XQ**

# Azərbaycanın antikorrupsiya təcrübəsi dünyada maraq doğurur




**Prezident İlham Əliyevin siyasi iradəsi ilə korrupsiyaya qarşı qəti mübarizə aparılır, ölkəmiz bu sahədə mühüm institusional təşəbbüs olan ASAN brendinin müəllifidir. Həmçinin beynəlxalq əməkdaşlığa xüsusi önəm verilərək dövlətimiz dünyanın 160 qurumunu birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri olmaqla onun işində fəal iştirak edir, Azərbaycanın ədliyyə naziri IAACA-nın vitse-prezidentidir.**

IAACA tərəfindən korrupsiyaya qarşı mübarizədə beynəlxalq səylərin gücləndirilməsinə, bu sahədə fəaliyyətin əlaqələndirilməsinə və təcrübə mübadiləsinə dəstək göstərilir, digər dövlətlərin antikorrupsiya orqanları və beynəlxalq şəbəkələrlə əməkdaşlıq edilir. Həmçinin tədris, maarifləndirmə və digər tədbirlər təşkil olunaraq dövlətlərin antikorrupsiya təcrübəsi təşviq edilir, bu məqsədlə qurumun sosial media platformasında maarifləndirici videoçarxlar nümayiş etdirilir.

Bununla əlaqədar Azərbaycanın Ədliyyə naziri, Assosiasiyanın vitse-prezidenti Fikrət Məmmədov korrupsiya ilə mübarizəyə töhfə verən, dövlətimizin başçısının təşəbbüsü ilə yaradılmış – "ASAN xidmət"in yüksək vətəndaş məmnunluğu doğuran və şəffaflığı təmin edən fəaliyyətindən bəhs edib.

Bununla bağlı IAACA-nın sosial media platformasında yayımlanan videoçarxda ASAN mərkəzlərinin fəaliyyəti, müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən vətəndaşlara, o cümlədən, səyyar qaydada göstərilən 400-dən çox xidmət barədə ətraflı məlumat verilir.

Bildirilir ki, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 100 faizə yaxındır, bu təşəbbüs beynəlxalq səviyyədə tanınır və Azərbaycanın "ixrac edilən" brendinə çevrilmiş ASAN modeli artıq digər dövlətlər tərəfindən tətbiq olunur. "ASAN xidmət" BMT-nin bir sıra təltiflərinə, habelə cari ildə 10-cu Dünya Hökuməti Sammitində "Dünyanın ən yaxşı hökumət xidməti" mükafatına layiq görülüb.

IAACA tərəfindən Azərbaycanın təşəbbüskarlığı və bölüşdüyü təcrübəsi maraqla qarşılanaraq təqdir olunub.

**XQ**

# Azərbaycan mallarının xaricdə rəqabət qabiliyyəti yüksəlir

## 10 ayda ixrac 2,7 milyard dollara yüksəlib

**Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.**




Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın noyabr sayında həyata keçirilən layihələrin nəticəsi olaraq diqqətə çatdırılan göstəricilərə əsasən, 2023-cü ilin 10 ayı ərzində ölkəmizin ümumi ixracı 29,3 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,1 faiz artaraq 2,7 milyard dollar təşkil edib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 706,9 milyon dollara bərabər olub, elektrik enerjisinin ixracı 2,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 24,6 faiz, qara metal məmulatlarının ixracı 19,8 faiz, meyvə-tərəvəz ixracı isə 11,5 faiz artıb.

2023-cü ilin yanvar–oktyabr ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 9,2 faiz artaraq 734 milyon dollar təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9 faiz artaraq 163 milyon dollara çatıb.

Hesabat dövründə ixraca yönəldilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (348 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (126 milyon dollar) ikinci, qızıl (119 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

10 ay ərzində Rusiya Federasiyasına 881 milyon dollar, Türkiyəyə 676 milyon dollar, Gürcüstana 266 milyon dollar, İsveçrə Konfederasiyasına 130 milyon dollar, Qazaxıstana isə 84 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Cari ilin oktyabr ayının qeyri-neft ixracı isə 15,4 faiz artaraq 278 milyon dollar olub. Yeyinti məhsulları üzrə ixrac 24,1 faiz artımla 91 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 11,6 faiz artımla 188 milyon dollar təşkil edib.

Cari ilin oktyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (94 milyon dollar) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (44 milyon dollar) ikinci və Gürcüstan (26 milyon dollar) üçüncü olub.

"İxrac icmalı"nda göstərilir ki, 2023-cü ilin yanvar–noyabr ayları ərzində "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 221 milyon dollar, noyabr ayında isə 42 milyon dollar təşkil edib.

İcmalda, həmçinin qeyd edilir ki, 2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 46 ölkəsinə 16 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib.

2023-cü ilin yanvar-oktyabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 4,7 milyon dollar ilə Birləşmiş Krallıq, 3,4 milyon dollar ilə Lüksemburq, 1,4 milyon dollar ilə BƏƏ, 873 min dolları ilə Almaniya və 622 min dollar ilə Nigeriya qərarlaşıb.

Belə göstəricilərin əldə olunmasında təbii ki, yazının əvvəlində sadalanan amillərlə yanaşı, digər səbəblər də mühüm rol oynayıb. Məsələn, respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulandan sonra ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu, ölkəmizə Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir tədbirin gerçəkləşdirilməsi həm də ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib. Bütün bunlarla bərabər, ixrac potensialının gücləndirməsini son illər Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların salınması da sürətləndirib.

Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. Bu gün yerli istehsalatda istifadə olunan 300-ə yaxın aralıq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

Hazırda da bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirləri, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanaraq aidiyyəti dövlət orqanları ilə müzakirə olunur.

Yuxarıda qeyd edilənlər və bununla bağlı müsbət göstəricilər hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşmasını deməyə əsas verir. Bu, istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri–neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyalarının dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarların iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı"nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Avropa Enerji Tənzimləyiciləri Şurasının Bakı təlimi



**Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (AERA) mütəxəssisləri üçün Avropa Enerji Tənzimləyiciləri Şurasının (CEER) ekspertlərinin iştirakı ilə növbəti seminar təşkil edilib.**

Tədbir Avropa İttifaqının "EU4Energy" proqramının II mərhələsi–"Şərq Tərəfdaşlığı ölkələrində təmiz enerjiyə keçidin təşviqi" layihəsi çərçivəsində reallaşıb.

İki gün davam edən seminarda adıçəkilən beynəlxalq qurumun ekspertləri elektrik və qaz təchizatı şəbəkəsində xidmət keyfiyyətinin, etibarlılığının və dayanıqlığının qiymətləndirilməsi, habelə texniki və kommersiya keyfiyyəti, eləcə də təchizat davamlığı ilə bağlı Avropa təcrübəsini AERA-nın mütəxəssisləri ilə bölüşüblər.

Seminarda təqdim olunan mövzularla bağlı birgə fikir mübadiləsi aparılıb.

# "Tərtərçay" da Xəzərə qovuşdu

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) Zığ gəmi təmiri və tikintisi zavodunda inşa olunan növbəti yedək gəmisi istismara verilib.**



ASCO-dan XQ-yə verilən məlumata görə, Xəzər Dəniz Neft Donanmasının balansına qəbul edilən gəmi "Tərtərçay" adlandırılıb. Gəminin uzunluğu 26 metr, eni 6,7 metr, bortunun hündürlüyü 3 metr, suya oturumu 1,6 metr, dedveyti 14 tondur. 6 nəfərlik heyətlə idarə olunan yedək gəmisi 9 uzellə hərəkət edəcək və göyərtəsində 3 tonadək yük daşıya biləcək.

Qeyd edək ki, Zığ gəmi təmiri və tikintisi zavodunda geniş həcmdə peşəkar gəmi təmiri və dəniz mühəndislik xidmətləri göstərilir. 2017-ci ildən isə burada müvafiq sertifikatlaşma əsasında gəmilərin tikintisi də həyata keçirilir. Yeri gəlmişkən, "Tərtərçay" zavodun inşa etdiyi sayca ikinci gəmidir. Bundan öncə isə "ASCO 1" adlı eyni tipli gəmi inşa olunaraq təhvil verilib. Hazırda bu seriyadan olan daha 4 ədəd gəminin inşası davam edir. Həmin gəmilərin mərhələli şəkildə istismara verilməsi planlaşdırılır.

Üzən nəqliyyat vasitələrinin layihələndirilməsini ASCO-nun Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri yerinə yetiriblər.

# Yerli avtomobil istehsalı 58 faizdən çox artıb



**Cari ilin yanvar–oktyabr aylarında ölkədə 2 min 376 ədəd minik avtomobili istehsal olunub. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin eyni dövrünün göstəricisi ilə müqayisədə avtomobil istehsalı 45,4 faiz və ya 742 ədəd artıb.**

Cari ilin oktyabr ayında ölkədə 266 ədəd minik avtomobili istehsal olunub ki, bu da əvvəlki aya nisbətən 58,3 faiz çoxdur. Noyabr ayının 1-nə ölkədə hazır məhsul ehtiyatı 485 avtomobil təşkil edib.

***XQ***

# Ölkəmiz "yaşıl keçid" hərəkatının ön sırasında

**(əvvəli 1-ci səhifədə)**

Bütövlükdə isə, dekabrın 12-dək davam edəcək İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 28-ci tərəflər konfransında qlobal iqlim dəyişikliyinin nəticələri və istixana qazlarının tullantılarının azaldılması tədbirləri müzakirə ediləcək. Konfransın əsas mövzusu Paris sazişinin məqsədinə – planetdə qlobal temperaturun 2 °C-dən yuxarı qalxmasının qarşısının alınmasına nail olunmasının ilkin qiymətləndirilməsi olacaq.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tərəflər konfransı 1995-ci ildən etibarən hər il keçirilir. Konfransın əsas məqsədi dünya ölkələrinin iqlim dəyişikliyi ilə mübarizə sahəsində həyata keçirdikləri tədbirləri qiymətləndirməkdir. Bununla yanaşı, 1990-cı illərin ortalarından başlayaraq İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tərəflər konfransı çərçivəsində inkişaf etmiş ölkələrdə atmosferə atılan istixana qazları emissiyalarının məhdudlaşdırılmasına dair hüquqi öhdəlikləri özündə əks etdirən Kioto Protokolu müzakirə olunur. 2015-ci ildə isə iqlim dəyişikliyi ilə mübarizədə ən mühüm beynəlxalq sənəd hesab olunan Paris sazişi qəbul edilib. Artıq 195 ölkə bu sazişə imza atıb. 1995-ci ildə BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasına qoşulan Azərbaycan da artıq qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. Eyni zamanda, 2016-cı ildə Paris sazişini ratifikasiya edən ölkəmiz "yaşıl keçid" platformasının fəal üzvünə çevrilib.

Bu mühüm beynəlxalq platformanın fəal üzvlərindən sayılan Azərbaycan 2021-ci ildə Qlazqoda keçirilən İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı sessiyası zamanı 2050-ci ilə qədər istixana qazı emissiyalarını 1990-cı il səviyyəsi ilə müqayisədə 40 faiz azaltmağa razılaşaraq iqlim dəyişikliyi ilə bağlı təşəbbüslə çıxış edib. Belə ki, bərpaolunan enerji potensialı ilə zəngin olan Azərbaycan Respublikası 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürüb. Bu məqsədlə "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda ölkənin ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması nəzərdə tutulub.

Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün isə Azərbaycanda hərtərəfli imkanlar mövcuddur. Məhz bu səbəbdəndir ki, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınan ölkəmizin bərpaolunan enerji potensialı beynəlxalq səviyyədə olduqca yüksək qiymətləndirilir. Belə ki, respublikamızın bərpaolunan enerji potensialının həcmi, quruda külək və günəş enerjisi nəzərə alınmaqla, 27 qiqavatdan çoxdur. Bundan əlavə, Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavat həcmində külək enerjisi potensialı mövcuddur.

Ölkəmizin işğaldan azad edilmiş əraziləri də "yaşıl" sərvətlə zəngindir.



Mütəxəssislərin araşdırmalarına görə, Qarabağ və Şərqi Zəngəzurda 4 min meqavatdan artıq günəş və 500 meqavatadək külək enerjisi potensialı mövcuddur. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızın bərpaolunan enerji potensialını nəzərə alaraq həmin əraziləri "yaşıl enerji" zonası elan edib.

Hazırda ölkəmiz bərpaolunan enerji potensialının hərəkətə gətirilməsində, eləcə də "yaşıl enerji"nin ixracında böyük beynəlxalq dəstəyə malikdir. Etibarlı enerji tərəfdaşı kimi özünü tam təsdiqləyən Azərbaycan, hazırda həm də "yaşıl" layihələrə investisiya yatırmaq üçün cəlbedici ölkələrdən biri sayılır. Hazırda dünyanın aparıcı "yaşıl enerji" şirkətləri ilə bərpaolunan enerji sahəsində fəal əməkdaşlıq edilir. Ötən müddətdə ölkəmizin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi üçün əcnəbi şirkətlərlə bir sıra saziş və anlaşma memorandumlara imzalanıb. Bu baxımdan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın BP və Avstraliyanın "Fortescue Future Industries" şirkətləri ilə imzalanmış sənədlər Avropaya enerji təchizatının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bütövlükdə isə, xarici investorlarla imzalanan sənədlərə əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerjinin həcmi 10 qiqavata çatdırılacaq.

Artıq ölkəmiz "yaşıl" əməkdaşlığın ilk uğurlarını qeyd edir. Belə ki, cari ilin oktyabr ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası istifadəyə verilib. Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş elektrik stansiyasıdır.

Qarşıdakı illərdə isə Azərbaycan bərpaolunan enerji mənbələri sahəsində daha böyük uğurlara imza atmaq əzmindədir. Belə ki, ölkəmiz 2027-ci ilə qədər istehsal olunan resursların 80 faizini ixrac etmək niyyətindədir. Bu məqsədlə yaxın perspektivdə respublikamızda 3 qiqavat külək və 1 qiqavat günəş enerjisi istehsal ediləcəyi nəzərdə tutulur. Azərbaycanın əsas "yaşıl bazarı" isə Avropa qitəsində yerləşir. "Yaşıl" sərvətimizi "köhnə qitə"yə çatdırmaq üçün ortada artıq konkret layihə də mövcuddur. Məlum olduğu kimi, ötən il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Qafqaz regionundan Avropaya enerji körpüsünün tikintisini nəzərdə tutan strateji tərəfdaşlıq sazişi imzalayıblar. Əldə edilmiş razılaşma çərçivəsində 1000 meqavat gücündə və 1195 kilometr uzunluğunda Qara dəniz sualtı elektrik kabelinin çəkilməsi nəzərdə tutulur. Həmin kabellə Azərbaycanda hasil edilən "yaşıl" elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya çatdırmaq üçün Macarıstana və Avropanın qalan hissəsinə nəql olunacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ermənistanın Rusiya demarşı baha başa gəlir




**"Yuxarı Lars" keçid məntəqəsində yaranmış son gərgin vəziyyət Ermənistanda narahatlıqla izlənilir. Ermənilərə məxsus yüzlərlə böyük tonnajlı avtomobillərin keçid məntəqəsində ilişib qalması İrəvanda ciddi narazılıq doğurur. Rusiya avtomobillərin keçidinin ləngiməsini "Qida məhsullarının fitosanitar standartlara uyğun gəlməməsi" ilə izah etsə də, İrəvan baş verənləri özünəməxsus şəkildə şərh edir. Məsələn, deputat Artur Xaçatryanın sözlərinə görə, "Yuxarı Lars" keçid məntəqəsində yaranmış vəziyyət Ermənistan–Rusiya münasibətlərindəki hazırkı gərginliklə bağlıdır".**

Ermənistanın anti-Rusiya demarşları İrəvana başa gəlir. İqtisadi nəbzinin Moskvada olmasını "unudan" İrəvanın şimal qonşusuna soyuq davranışı erməniləri yeni problemlərlə üzləşdirir. Xüsusilə də strateji yol hesab etdikləri "Yuxarı Lars" keçid məntəqəsində avtomobillərin gömrük nəzarətindən keçməsinin ləngiməsi və bir çox halda Rusiyaya buraxılmaması Ermənistanda onsuz da güclü olan anti-Rusiya əhval-ruhiyyəsini daha da artırıb. Nikol Paşinyan hökumətini hər imkanda tənqid edən müxalifət düşərgəsi "Yuxarı Lars" keçid məntəqəsində yaranmış vəziyyəti Ermənistan üçün ciddi siqnal hesab edir. Məsələn, "Ermənistan" fraksiyasının deputatı Artur Xaçatrya iddia edir ki, "Yuxarı Lars" keçid məntəqəsində yaranmış vəziyyət Ermənistan-Rusiya münasibətlərindəki hazırkı gərginliklə bağlıdır: "Rusiyanın bu addımının müəyyən mesaj olduğunu istisna etmirəm. "Rospotrebnadzor" və "Rosselxoznadzor" təkcə bazara nəzarət etmir, həm də siyasi faktordur. Görünən odur ki, Paşinyan nə qədər Putinlə münasibətinə və verdiyi açıqlamalara istinad etsə də, münasibətlər çox gərgindir və bu, ictimai əhval-ruhiyyəyə təsir etməyə bilməz".

Ermənistanın iri nəqliyyat-logistika şirkəti "Apaven"in direktoru Qaqik Ağacanyan isə düşünür ki, "Yuxarı Lars" keçid məntəqəsini, sadəcə, keçid məntəqəsi hesab etmək olmaz. Onun sözlərinə görə, bu, bir simvoldur və "Yuxarı Lars" keçid məntəqəsinin bağlanması Ermənistan–Rusiya münasibətlərinin sonu deməkdir. "Ermənistana taxıl haradan gəlir? Biz 400 min ton buğda idxal edirik ki, bunun da əhəmiyyətli hissəsi Rusiyadan gətirilir. Siyasətçilər təsərrüfat subyektlərinin fəaliyyətinə qarışmamalıdırlar". Onu Rusiyanın erməni məhsullarındakı problemlərin müəyyənləşdirilməsi istiqamətində atdığı addımlar da təəccübləndirməyib: "Biz baş verənləri başqa ölkələrin timsalında gördük. Axı türk pomidoru və gürcü mallarının idxalına qadağa qoyuldu. Belə addımların atılacağı bəlli idi. Sabah qazın qiyməti qalxa bilər. Biz ya buna hazır olmalıyıq, ya da yarana biləcək vəziyyətdən çıxış yolları axtarmalıyıq. Biz məhsullarımızın satış bazarının şaxələndirilməsinin əleyhinə deyilik, baxmayaraq ki, indi də ixrac təkcə Rusiyaya deyil".

Erməni iş adamı etiraf edir ki, alternativ bazarlara daxil olmaq çox çətindir, buna görə də, məhsullar Rusiyaya ixrac edilir və bunun üçün reklam üçün pul xərcləmək lazım deyil: "İndi erməni konyakını Çinə göndərməyə çalışın. Əhalisi 10 dəfə az olan Rusiyadakı kimi heç vaxt orada eyni həcm satılmayacaq". Onun sözlərinə görə, yük maşınları üçün "Yuxarı Lars" keçid məntəqəsi hava şəraiti ilə əlaqədar bağlanıb: "Gömrükçülərin növbə dəyişdirməsi səbəbindən də tıxaclar yaranır, baxmayaraq ki, bu amil ciddi rol oynamır, çünki bu halda gecikmə maksimum iki saat davam edə bilər. Belə olan halda isə vəziyyət başqadır, maşınlar müxtəlif terminallarda dayanır və keçid məntəqəsinə gedə bilmirlər. Yol rəsmən açılmayana qədər orada yük daşımalarının hərəkəti mümkün deyil və bu, qar yağandan sonra müvafiq xidmətlər yolu lazımi vəziyyətə gətirəndə baş verəcək. Q.Ağacanyan, həmçinin iddia edir ki, bərə daşımaları "Yuxarı Lars" keçid məntəqəsi ilə yükdaşımaları əvəz edə bilməz, çünki bərə heç vaxt tez xarab olan malları, o cümlədən meyvələri daşımayacaq, çünki bu, çox vaxt apara bilər. Qaqik Ağacanyan vəziyyətin siyasi səbəblərdən qaynaqlandığını düşünmür. Onun fikrincə, baş verənlər Ermənistanı ixrac strategiyasına yenidən baxılması barədə düşünməyə sövq edir.

Lakin rəsmi İrəvandakı siyasətçilər fərqli düşünürlər. Ermənistan hakimiyyəti hazırkı vəziyyətin siyasi səbəblərdən qaynaqlandığını düşünür. Ermənistan hökumətinin aparat rəhbəri Arayik Arutyunyan "Facebook" sosial şəbəkəsində yazıb ki, "hər hansı bir keçid məntəqəsinin bağlanması bizə təsir etməyəcək" və ölkədəki və dünyadakı erməniləri sırf erməni mənşəli məhsullar almağa çağırıb. A.Arutyunyanın sözlərinə görə, biznesə və vergi ödəyicilərinə bu cür dəstək "müstəqilliyin və suverenliyin möhkəmləndirilməsi üçün həyati əhəmiyyət kəsb edən davranışdır". İrəvan hakimiyyəti birbaşa demir ki, Moskva siyasi səbəblərdən Ermənistan məhsullarının Rusiya Federasiyasına idxalına mane olur. Məsələn, ekspert Norayr Gevorkyan bildirib ki, yaranan məhdudiyyətlər "qanun çərçivəsində" tətbiq edilir. Uzun yoxlamalardan sonra yükün fitosanitar standartlara cavab vermədiyi tanınır və geri qaytarılır.

Xatırladaq ki, "Yuxarı Lars" və ona bitişik nəqliyyat və logistika infrastrukturu Avrasiya nəqliyyat çərçivəsinin bir hissəsi olan "Şimal–Cənub" yol dəhlizinin mühüm elementləridir. Ermənistan üçün bu, Avrasiya İqtisadi Birliyinin digər üzv dövlətləri ilə ticarət-iqtisadi əlaqələri təmin edən yeganə quru yoludur.

**Səbuhi MƏMMƏDOV**
**XQ**




# "PAŞA Holding"in İnmerge İnnovasiyalar Sammiti

**Məlumat verildiyi kimi, "PAŞA Holding" İnmerge İnnovasiya Sammitini təşkil edir. Dünən – 30 noyabr sammitin ilk günü baş tutub.**

Tədbirin açılışı zamanı "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov tədbir iştirakçılarını salamlayıb, sammitin təşkilinin əsas məqsədi, eləcə də bu sammitin ölkəmiz və region üçün önəmi barədə danışıb.

"Ölkəmizdə və regionda innovasiya ekosisteminin dəstəklənməsi əsas prioritetlərimizdəndir. Düşünürəm ki, hazırkı sammit bu hədəfə çatmağa böyük töhfə verəcək", – deyə "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov bildirib.

Bu sammit texnologiya sahəsində aparıcı şəxsləri və şirkətləri, eləcə də innovasiyayönümlü startapları Bakıda bir araya gətirmək, onlar üçün peşəkar müzakirələr, fikir və təcrübə mübadiləsi imkanı yaratmaq və beləcə ölkə və regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərmək məqsədi daşıyır.

Tədbirin ilk günü çərçivəsində sammitin açılışı üçün rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, iqtisadiyyat nazirinin müavini Elnur Əliyev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümov və "Trendyol" şirkətlər qrupunun CEO-su Erdem İnan da səhnədə idilər. Onların çıxışının ardınca isə hamını həyəcanlandıran təqdimat baş tutub və Steve Vozniak gələn hər kəsi salamlayıb. O, öz çıxışı zamanı məktəb vaxtlarındakı mühəndislik uğurlarına, Stiv Cobs ilə tanışlığına, həmçinin "Apple"ın ilk günlərindən hekayələrə yer verib.

Bütün bunlarla yanaşı, "PAŞA Holding" dünyanın müxtəlif ölkələrindən iştirakçıları maliyyə texnologiyaları və telekommunikasiya vertikallarında, eləcə də təlimlərdə bir yerə toplayıb. Sammit çərçivəsində baş verən önəmli hadisələrdən biri də "Azərbaycan Respublikasında innovasiya və startap ekosisteminin inkişafı üçün əməkdaşlıq ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması olub. Memorandumu "PAŞA Holding"in İnnovasiyalar Şöbəsinin müdiri Fərrux Əliyev, İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov, Elm və Təhsil Nazirliyinin Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri vəzifəsini icra edən İnara Vəliyeva, SOCAR-ın vitse-prezidenti Kənan Nəcəfov imzalayıblar.

Qeyd edək ki, bu gün regionun ən böyük innovasiyalar sammitinin ikinci günü keçirilir.

**XQ**

# Özbəkistanlı nazir "ASAN xidmət"də



**Ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının rəqəmsal texnologiyalar naziri Şerzod Şermatovun rəhbərlik etdiyi nümayəndə heyəti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**

Agentliyin sədri Ülvi Mehdiyev qonaqlara "ASAN xidmət", eləcə də Dövlət Agentliyinin digər fəaliyyət istiqamətləri ilə bağlı məlumat verib.

Həmçinin "ASAN xidmət" modelinin Özbəkistan da daxil olmaqla müxtəlif ölkələrdə uğurla tətbiq olunduğu vurğulanıb. Qeyd olunub ki, hazırda Özbəkistanda "ASAN xidmət" modeli əsasında 208 xidmət mərkəzi uğurla fəaliyyət göstərir.

Görüşdə Dövlət Agentliyi ilə Özbəkistanın müvafiq qurumu arasında əməkdaşlıq perspektivləri müzakirə olunub və startaplara dəstək sahəsində birgə fəaliyyətə dair razılıq əldə olunub.

**XQ**

# Türk dünyasında mədəni turizmin gələcəyi



**Dekabrın 1-də Şuşada "Türk dünyasının mədəni turizm perspektivləri" mövzusunda beynəlxalq elmi konfransı keçirilib.**

Dövlət Turizm Agentliyi ilə Türk Dövlətləri Təşkilatı tərəfindən təşkil olunan tədbirin məqsədi türkdilli dövlətlərin ortaq turizm məhsulları və marşrutlarının yaradılması istiqamətində fikir mübadiləsi aparılması, bu sahədə əməkdaşlıq perspektivlərinin müzakirə olunmasıdır. Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və Macarıstanın rəsmi qurumlarının təmsilçiləri, mədəni irs üzrə ekspertləri iştirak ediblər.

Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynova tədbirin əhəmiyyətini vurğulayaraq, ortaq mədəni irsə sahib olan türkdilli dövlətlərin turizm sahəsində əməkdaşlığının gücləndirilməsinə ehtiyac olduğunu qeyd edib. O, konfransda səslənən fikirlərin türk xalqları arasında əməkdaşlıq perspektivlərinin genişləndirilməsinə dəstək olacağına əminliyini ifadə edib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov Şuşanın özündə və ətrafında mədəni turizmin inkişafi üçün kifayət qədər imkanların mövcudluğunu bildirib. Konfransın işinə uğurlar arzulayan T.Novruzov gələcəkdə yeni turizm marşrutlarının imkanlarını vurğulayıb.

Sonra konfransda TDT üzv ölkələrin nümayəndələri "Türkdilli ölkələrin köçəri həyat tərzinin turizm məhsuluna çevrilməsi" mövzusunda təqdimatlarla çıxış ediblər.

Unudulmaqda olan köçəri həyat tərzinin türk xalqları arasında, eləcə də Azərbaycanda hələ də qorunub saxlanıldığı qeyd edilib. Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə agentliyin mütəxəssisləri tərəfindən hazırlanmış nominasiya sənədi ilə "Xınalıq kəndi və Köç yolu Mədəni Landşaftı"nın bu ilin sentyabrda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edildiyi vurğulanıb. Konfrans çərçivəsində, həmçinin iştirakçı ölkələrdə köçəri mədəniyyətini əks etdirən fotolardan ibarət sərgi də təşkil olunub.

Tədbir çərçivəsində Dövlət Turizm Agentliyi və Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə türk xalqlarının ortaq mətbəx nümunələrinin təqdimatı da keçirilib.

**XQ**

# Praqada Azərbaycan barədə film

**Praqada Azərbaycan Respublikasının Çexiyadakı səfirliyinin dəstəyi ilə Ostrava televiziyasının hazırladığı Azərbaycana həsr edilmiş filmin təqdimat mərasimi keçirilib.**



Qeyd edək ki, "Azərbaycan Petr Valdanın gözü ilə" adlı layihənin məhsulu olan 13 hissədən ibarət qısametrajlı filmdə Azərbaycanın müxtəlif guşələri, mədəniyyəti, tarixi və xalqın gündəlik həyatı təsvir edilib.

Təqdimat mərasimində çıxış edən ölkəmizin Çexiyadakı səfiri Adış Məmmədov filmin rejissoru Petr Voldana, filmin hazırlanmasında əməyi olan hər kəsə, xüsusilə də Çex Televiziyasının rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra Petr Voldan və filmin yaradıcı heyəti çıxış edərək, Azərbaycan haqqında təəssüratlarını bölüşdülər. Sonda isə filmə baxış keçirilib.

Qeyd edək ki, təqdimatda diplomatik korpusun üzvləri, çex ictimaiyyətinin nümayəndələri, Karlov Universitetinin müəllim heyəti və həmvətənlərimiz iştirak ediblər.

**XQ**

# Aİ-nin "etnik və dini" ittihamı əsassızdır

**Avropa İttifaqının nümayəndəsi ATƏT-in Nazirlər Şurasında etdiyi çıxışda "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi, o cümlədən qayıdış hüququ" məsələsini qabardıb.**

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda qeyd olunub: "Avropa İttifaqının Azərbaycanın daxili işlərinə qarışması, məsələlərə etnik və dini zəmində yanaşması, Ermənistandan deportasiya edilmiş azərbaycanlıların qayıdışı hüququna toxunmaması tamamilə qəbuledilməzdir.

Bu kimi qərəzli açıqlamalar Avropa İttifaqının Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması prosesində dürüst vasitəçi kimi çıxış edə bilməyəcəyini göstərir".

**XQ**

# Parlament müzakirələri



### Nənə-baba pensiyasına göz dikənlər var

"Biz seçicilərlə görüşə gedirik, amma təmsil etdiyimiz ərazilərdə çox qala bilmirik, vətəndaş qəbulu zamanı qaçırıq. Çünki seçicilərin deputatlardan tələbi çoxdur".

Bu sözləri Milli Məclisin deputatı Tahir Kərimli parlamentin plenar iclasında səsləndirib. O deyib ki, bu gün regionlarda iş olmadığından, xüsusilə, gənclər bölgələri sürətlə tərk edirlər. Qalanlar da nənə və babasının pensiyasına göz dikib, başqa gəlir yerləri yoxdur.

T. Kərimli pilotların pensiyası ilə bağlı probleminə də toxunub: "5 min 400 uçuş edən pilot yüksək pensiya təminatı ilə pensiyaya çıxırdı, amma qanunvericiliyə dəyişiklikdən sonra isə pilotlar 25 il xidmət etdikdən və 50 yaşdan sonra pensiyaya çıxa bilərlər. Bu da onlar üçün ciddi problem yaradır. Pilotların pensiya təminatının əvvəlki qaydaya qaytarılması daha ədalətli olar.

### Telekanallar "Reklam haqqında" Qanunu pozur

Bir qrup deputat bəzi televiziya kanallarında "Reklam haqqında" Qanunun kobud surətdə pozulduğunu dilə gətirib: "Telekanallarda deyirlər: "Pampersə təşəkkür edirik". Bu nə deməkdir? Pampersə təşəkkür edirikssə, onda gərək, bütün geyim növlərinə də təşəkkür edək. Siqaretin reklamı qəti qadağan olunsa da, bu məsələdə də qanun kobud şəkildə pozulur".

### "Erkən nikahlara görə axundlar günahkardır"

Milli Məclisin Ailə, Qadın Uşaq Məsələləri üzrə Komitəsinin sədri Hicran Hüseynova erkən nikahların bağlanmasına münasibət bildirərkən deyib: "On səkkiz yaşına çatmayanların nikahı qadağan edilib. Təəssüf ki, bu gün erkən nikahların əksəriyyətini axundlar kəsir. Ancaq bugünə qədər azyaşlıların qanunsuz kəbini ilə bağlı bir dənə də olsun din xadimi cəzalandırılmayıb".

### Əlillik problemi həll edilməlidir

Deputat Siyavuş Novruzov qazilərin hüquqlarının müdafiəsindən söhbət açıb və bunlardan birinin onların əlillik dərəcəsi alması ilə bağlı olduğunu bildirib: "Biri gəlib idarənin pəncərəsinin şüşəsini sındırır, digəri başqa hərəkət edir. Olmaz ki, bir komissiya yaradılsın, ictimaiyyət nümayəndələri çağırılsın, həmin adamlar yoxlanılsın və qərar verilsin ki, ona əlillik düşür, ya düşmür. Bu adam döyüşüb. Hərbçilər bilirlər ki, onlar döyüşdə elə zədə alırlar ki, tibbdə bunu müəyyən etmək çətindir. Bu problem həllini tapmalı, narazılıq aradan qaldırılmalıdır".

### Ünvanlı sosial yardım kimlərə və necə ayrılır?

Bir qrup deputat ünvanlı dövlət sosial yardımından danışıb. Qeyd edilib ki, bu yardımdan 300 min insan yararlanır. Amma ünvanlı dövlət sosial yardımın təyinatında qüsurlar var. Kimin adında yarım hektar torpağı var, ona ünvanlı sosial yardım təyin etmirlər. Axı, o yarım hektardan həmin adam heç nə əldə edə bilmir. Elə adamlar var ki, 10 illərdir sosial yardım alır. Belə bir el məsəli var: "Ac adama balıq vermək yox, balıq tutmağı öyrətmək lazımdır. İnsanlara illərlə sosial yardım vermək yox, onları hansısa işə yönəltməliyik".

### Bəzi xəstəliklər icbari sığortadan kənarda qalıb

"İcbari Tibbi Sığortanın xidmətlər zərfinə daxil olan xəstəliklərin sayı artır, amma bu gün ana və uşaqlar arasında ciddi fəsadlar verən xəstəliklər var ki, onlar icbari sığortadan kənardadırlar".

Bu fikirləri Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov səsləndirib. O deyib ki, bu gün çoxlu sayda anaları süd vəzi xərçənginə tutulur, nə qədər uşaq leykozdan əziyyət çəkir: "Biz onlara deyə bilmirik ki, sənin xəstəliyin İcbari Tibbi Sığortanın xidmətlər zərfinə daxil deyil. Eyni zamanda, onkoloji dərmanların nə qədər baha olduğunu yaxşı bilirik. Böyük tələfat verən xəstəliklər icbari sığortadan kənarda qalmamalıdır".

### Bir insan 2 vəzifədə necə çalışır?

Bu fikirləri deputat Etibar Əliyev səsləndirib. "Bir insanın iki vəzifədə çalışaraq uğur qazanması mümkünsüzdür. Alim deputatlar bəzən böyük vəzifələr tutur, bir çox vəzifəli şəxslər isə həm də universitetlərdə kafedra müdiri işləyirlər. Bir neçə il əvvəl universitet rektorları həm də Milli Məclisin deputatı idilər. Bir nəfərin uzun illər eyni vəzifəni icra etməsi, sanki, Azərbaycanda ənənəyə çevrilib. Məsələn, bu gün ali məktəblərin birində kafedra müdiri var, 40 ildən çoxdur ki, həmin vəzifədədir. Onun 90-dan çox yaşı var, hələ də vəzifəsinə davam edir.

*Tədqim etdi:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Yuta ştatının fond rəhbəri Azərbaycanda



**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda səfərdə olan ABŞ-ın Stirlinq Fondunun prezidenti və idarə heyətinin sədri Mayls Hansenlə görüşüb.**

Görüşdə şeyxülislam A.Paşazadə Stirlinq Fondunun həmtəşkilatçılığı ilə Bakıda Tolerantlıq Günü ilə bağlı keçirilən beynəlxalq konfransı, Azərbaycandakı dini konfessiya rəhbərlərinin ABŞ-ın Yuta ştatına builki səfərini xatırlayıb.

QMİ sədri Stirlinq Fondunun Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə əməliyyatları həyata keçirilməsində yaxından iştirak etməsini yüksək dəyərləndirib.

Azərbaycana hər səfərdən mənəvi zövq aldığını deyən M.Hansen ölkəmizin multikultural həyat tərzinin olduqca böyük əhəmiyyət kəsb etdiyini, Yuta ştatının dini icmasının Azərbaycanla mənəvi əlaqələrin dərinləşməsində maraqlı olduğunu vurğulayıb. O, şeyxülislam A.Paşazadəni Yuta ştatına bir daha səfərə dəvət edib.

*XQ*

# Ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq örnəyi

**Dekabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ABŞ-ın Stirlinq Fondunun prezidenti və idarə heyətinin direktoru Mayls Hansen ilə görüşüb.**



Görüşdə Komitənin sədri qeyd edib ki, dünyəvi dövlət olan Azərbaycanın dini konfessiyalara münasibətində bərabərlik prinsipi mütləq mənada qorunur. 37-si qeyri-islam təmayüllü olmaqla dövlət qeydiyyatına alınan 995 dini icmanın fəaliyyətinin dəstəklənməsi istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməklə yanaşı, dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır.

Stirlinq Fondunun prezidenti Mayls Hansen ölkəmizdəki dinlərarası dialoq və əməkdaşlığın çox qiymətli dəyər olduğunu vurğulayıb. Fondun Azərbaycanda həyata keçirdiyi işlərə toxunan qonaq, eyni zamanda, Briqam Yanq Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında əməkdaşlığın inkişaf perspektivlərinə diqqət çəkib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında dageniş fikir mübadiləsi aparılıb.

*XQ*

# AMEA "Türk dilinə xidmət" mükafatına layiq görülüb

**Azərbaycan Milli Elmlər Akademiyası Türkiyə Cümhuriyyətinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun ali mükafatı olan "Türk dilinə xidmət" mükafatına layiq görülüb. Mükafatın təqdimetmə mərasimi Ankara şəhərində baş tutub.**



Mükafatı AMEA-ya Türkiyə mədəniyyət və turizm nazirinin müavini Gökhan Yazqı təqdim edib. Akademiyanın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək Türkiyə Cümhuriyyətinin 100-cü ilində və Azərbaycanda qeyd edilən "Heydər Əliyev İli"ndə Akademiyanın "Türk dilinə xidmət" mükafatı ilə təltif olunmasının əhəmiyyətindən danışıb və Atatürk Kültür, Dil və Tarix Yüksək Quruma və Türk Dil Quruma dərin minnətdarlığını bildirib.

Sonra Azərbaycan Milli Elmlər Akademiyasına həsr edilmiş 10 dəqiqəlik videoçarx nümayiş etdirilib.

Qeyd edək ki, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu Başqanlığının "Türk dilinə xidmət" mükafatı AMEA-nın müstəqillik illərində təltif olunduğu ilk beynəlxalq mükafatdır.

*XQ*

# Bakıdan Belqrada birbaşa aviareyslər açılacaq

**Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayevin başçılıq etdiyi nümayəndə heyəti Serbiyada bir sıra hökumət rəsmiləri ilə görüşlər keçirib.**



Serbiyanın daxili və xarici ticarət naziri Tomislav Momiroviç ilə görüşdə Azərbaycan ilə Serbiya Prezidentlərinin dostluq münasibətləri, birgə səylər ilə strateji tərəfdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsasında bütün sahələrdə ikitərəfli əlaqələrin inkişaf etməkdə olduğu vurğulanıb.

Serbiyanın dağ-mədən və energetika naziri Dubravka Cedoviç, tikinti, nəqliyyat və infrastruktur naziri Qoran Vesiç ilə də görüşlər olub.

Görüşlərdə qaz təchizatı sahəsində imzalanmış sənədlərin icrası, Azərbaycandan Serbiyaya qaz tədarükü ilə bağlı fikir mübadiləsi aparılıb. Serbiyanın Gürcüstan–Rumıniya Qara dəniz sualtı enerji və rəqəmsal əlaqə layihəsinə cəlb edilməsi və elektrik enerjisi ticarəti imkanları nəzərdən keçirilib.

Eləcə də Azərbaycan və Serbiya arasında Belqrad–Bakı–Belqrad marşrutu üzrə birbaşa aviareyslərin yaxın vaxtlarda işə salınması üçün aparılan işlərdən bəhs olunub. İkitərəfli və tranzit yük axınlarının artırılması, infrastruktur sahəsində əməkdaşlığın davam etdirilməsi və s. məsələlər ətrafında müzakirələr aparılıb.

*XQ*

# Kahramanmaraş unudulmayıb




**Diaspolra İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondu Türkiyənin Kahramanmaraş bölgəsinə növbəti humanitar yardım göndərib.**

İçərisində yorğan, adyal, kondisioner, isidici və yemək bişirmək üçün sobalardan ibarət olan 2 tır Kahramanmaraş rayon Afet və Acil Durum (AFAD) Müdürlüyünə ünvanlanıb. Yardımın tərkibi Türkiyənin Azərbaycandakı səfirliyi və AFAD-la birlikdə müzakirələr nəticəsində bölgədə hazırkı ehtiyaclar nəzərə alınaraq müəyyənləşdirilib.

Xatırladaq ki, Azərbaycan hökumətinin dəstəyi ilə ADDF cari ilin aprel ayında Türkiyə–Azərbaycan Dərnəkləri Federasiyası ilə birlikdə Kahramanmaraşda zəlzələdən zərər çəkmiş 2600-dən çox ailəyə ərzaq yardımı, avqust ayında isə yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq Hatay və ətraf bölgələrdə 1-ci sinfə gedəcək şagirdlərə dəstək üçün 3000 məktəbli dəstindən ibarət humanitar yardım göndərib.

*XQ*

Məmməd Araz – 90

# “Haqqın var yaşamağa...“

**Dünən səhər Xalq şairi Məmməd Arazın poeziyasının vurğunları Fəxri Xiyabanda onun xatirəsini yad edib, məzarı üzərinə gül dəstələri düzdülər. Qüdrətli qələm sahibinin şair və insan kimi müsbət keyfiyyətləri xatırlandı. Şair özü vaxtilə “Yudu baş daşını gözümün yaşı, göz yaşı yeni can vermir adama” – desə də, ziyarətçilər hamılıqla bir daha əmin oldular ki, 19 ildən bəri ruhu göylərdə pərvaz edən Məmməd Araz ölməzdir. Sözün əsl rəssamı olan qüdrətli sənətkarın özü də bir şeirində bu qənaəti bölüşüb:**





**İnana bilmirəm: ölüm haqq ola,**
**Torpaq rəssam uda, bəstəkar uda!** –

Doğrudan da, qələmi ilə ölümü də tərkisilah etmiş Məmməd Araz dərin məzmunlu və milli ruhlu şeirləri ilə ölməzlik qazanmış poeziya nəhəngidir. Vətəni, Arazı, saf məhəbbət və sədaqəti tərənnüm edən, eləcə də milli azadlıq mövzularında yazdığı əsərləri istiqlal şairinə əbədi şöhrət qazandırıb.

Bu il 90 yaşı tamam olan Məmməd Arazın Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda keçirilən xatirə məclisi xüsusilə yaddaqalan oldu. Dəqiqələr, saatlar şairin bir-birindən gözəl şeirlərinin şirinliyində əridi. İnanmadıq onun bu dünyada olmadığına.

Məclisi AYB-nin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq, sönməz ilhama malik olan Məmməd Arazın poetik özəlliklərindən danışdı, şeirlərindən gətirdiyi misallarla fikirlərini əsaslandırdı. O, şairlə birgə Şuşa səfərindən də bəhs etdi və onun İsa bulağında şeir dediyi səhnəni gözlər önündə canlandırdı:

**Ulduzlar qoynuna qaldırıb onu**
**Bu dağlar vüqarı, bu dağlar gücü.**
**Bu gecə kəşf etdim bir Şuşa bürcü,**
**Bir Şuşa bürcü, tamaşa bürcü...**

Ardınca qiraət ustası, Əməkdar artist Ağalar Bayramov daş-kəsəkli poeziya yollarında heç zaman büdrəməmiş Xalq şairinin könül rübabının incilərindən seçmələri təqdim etdi.

AYB-nin sədri, Xalq yazıçısı Anar çıxışında baş qəhrəmanı Azərbaycan olan Məmməd Arazın vətəndaş şair kimi üstün keyfiyyətlərini diqqətə çatdırdı, atası – unudulmaz Xalq şairi Rəsul Rza ilə münasibətlərindən danışdı, “yaxşı şumunda heç vaxt yamanlığın göyərmədiyini” söyləyən Məmməd Araz ocağının sönməzliyindən fərəh duyduğunu dilə gətirdi.

Sonra çıxış edən filologiya elmləri doktorları Qəzənfər Paşayev və Vaqif Yusifli, Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədov, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, şair-publisistlər Qardaşxan Əzizxanlı, Ağacəfər Həsənli, yazıçı Qafar Cəfərli, AMEA Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Günay Qarayeva, Məmməd Arazın qardaşı oğlu Qorxmaz İbrahimov Xalq şairinin könülləri fəth edən yaradıcılıq məziyyətlərinə diqqəti cəlb etdilər, xatirələrini söylədilər və onun 90 illik yubileyinə həsr olunan tədbirlərdən danışdılar. Bir fikir dönə-dönə vurğulandı ki, öz əsərləri ilə xalqımızın söz xəzinəsini daha da zənginləşdirmiş, “İstiqlal” ordeninə layiq görülmüş Xalq şairi Məmməd Araz poeziyası daim yaşayacaq və hər zaman oxucularına vətənpərvərlik dərsi keçəcək. Buna mənəvi haqqı çatdığını o, yaratdığı bədii nümunələrlə sübuta yetirib:

**Çox tozanaq atlını**
**təmkin atınla keçdin,**
**Sel boğan dərələri**
**bir mərd qadınla keçdin.**
**Bütün keçilməzliyi,**
**Vətən, adınla keçdim...**
**Haqqın var, Məmməd Araz,**
**Haqqın var yaşamağa!..**

Məclisin sonunda şairin qızı, yazıçı-publisist, “Ədalət” qəzetinin baş redaktoru İradə Tuncay və Milli Məclisin deputatı, yazıçı Aqil Abbas Məmməd Araz sənətinə diqqət və sayğıya görə tədbirin təşkilatçı və iştirakçılarına minnətdarlıqlarını bildirdilər.

*XQ*

Ümumtürk söz xəzinəsi

# Nazim Hikmət irsi Türkiyəyə qayıdır

**Görkəmli tədqiqatçı-alim, Türkiyənin Ərzincan Universitetinin professoru Əli Kafqasiyalının “Böyük türk şairi Nazim Hikmət və Türk Dünyası” kitabı çapdan çıxıb. Dövrünün böyük poeziya nümunələrini yaradan Nazim Hikmətin həyat və yaradıcılığına həsr olunan 630 səhifəlik yeni kitab “Nobel yayıncılık” nəşriyyatı tərəfindən nəşr edilib.**




Əsərdə böyük türk şairi təkrarsız poetik şəxsiyyət, ictimai xadim, mütəfəkkir kimi təqdim edilir. Yaradıcılığı ilə müasir türk ədəbiyyatına güclü təsir göstərmiş Nazim Hikmət Türk poeziyasına sərbəst şer vəznini gətirmiş, əsərləri dünya xalqlarının dilinə tərcümə olunmuş, pyesləri bir sıra ölkələrdə tamaşaya qoyulmuşdur.

Nazim Hikmət Azərbaycan xalqının və ədəbiyyatının da yaxın dostu idi. Dəfələrlə Bakıda olmuş, Azərbaycan şair və yazıçılarının bir çoxu ilə yaxından dostluq etmiş, onlarla yaradıcılıq əlaqəsi saxlamışdır. Azərbaycana həsr olunmuş şeirləri, Azərbaycan mədəniyyətinə dair məqalə və xatirələri vardır. Məşhur ədəbiyyatşünas Əli Sultanlı şairi "Türk şeirinin Prometeyi" adlandırmışdır. Tanınmış Türk ədibi və jurnalisti Zəkəriyyə Sertelin "Mavi gözlü dev" adlandırdığı şairi "Nazim Hikmətov", "Kommunist Don Kixot" adlandıranlar da olubdur.

Şeirləri qadağan edilən və həyatı boyunca yazdıqlarına görə 28 il həbs cəzası almış Nazim Hikmət İstanbul, Ankara, Çankırı və 12 il Bursa həbsxanalarında həbsdə qalıb. Dünyanın 50-yə qədər dilinə tərcümə olunan Hikmət poeziyası Türkiyədə qadağan edilib, baxışlarına görə Türkiyə vətəndaşlığından məhrum edilib, amma ölümündən 46 il sonra Türkiyə dövlətinin 5 yanvar 2009-cu il tarixli qərarı ilə bəraət alıb. 1951-ci ildən SSRİ-də yaşayan Nazim Hikmət 1963-cü il iyunun 3-də Moskva şəhərində ürək tutmasından vəfat etmiş və “Novo Deviçye” qəbiristanlığında dəfn olunmuşdur.

İndi XXI əsrdir, 2023-cu ili yola salmaqdayıq. Unudulan və yaddan çıxan çox şeylər var. Çoxsaylı əsərləri və elmi tədqiqatları ilə Azərbaycan oxucularının da diqqətində olan Əli Kafkasiyalı böyük şairi “Böyük türk şairi Nazim Hikmət və Türk Dünyası” kitabı ilə yenidən gündəmə gətirdi. Qeyd edək ki, “Bu əsər ideyaları, əsərləri, xidmətləri və bütün yaradıcılığı ilə özünü həsr etdiyi böyük türk xalqının əsərinə çevrilən Nazım Hikmət haqqındadır” deyə professor Savaş Kafkasiyalının ön sözü ilə təqdim olunan əsər Əli Kafkasiyalının “Səməd Vürğun: bir milli şairə dair” əsərindən sonra bu il nəşr edilən ikinci kitabıdır.

*XQ*

# “Əmək kitabçamda bircə iş yeri yazılıb”

## 85 yaşlı Xalq artistinin fərqli obrazları

**Tanınmış aktyor, Xalq artisti Rafiq Əzimovun keçdiyi sənət yoluna nəzər saldıq. O, 61 ildir ki, Akademik Milli Dram Teatrında çalışır. Rafiq Əzimovun sənət yolu barədə dediklərini öz dilindən təqdim edirik:**

– Teatr sənəti mənə uşaqlıqdan doğma olub, çünki dram dərnəyinə, xalq teatrlarına getmişəm. Korifey sənətkarlarla birgə çalışmaq arzum olub. Musiqi məktəbinin tar sinfində təhsil almışam, valideyinlərim tarzən olmağımı istəyirdilər, amma mən qərara gəldim ki, öz istəyimin arxasınca gedim. Gizlincə sənədlərimi o vaxtkı Mirzəağa Əliyev adına Teatr İnstitutuna verdim. Tələbə bileti ilə evə gələndə heç nə demədilər.

İnstitutda Məhərrəm Haşımovun kursuna seçildim. Orada dərs deyən bütün sənətkarlar kurslarına tələbəni özləri seçirdilər. Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, Rza Təhmasib, həmçinin Məhərrəm Haşımov. Gözəl təcrübə idi. Həmin sənətkarların kursunu bitirən tələbələr səhnədə onların layiqli davamçıları olurdular.



### İlk obrazlar

– Hələ tələbə vaxtlarımda müəllimlərim mənə böyük rollar etibar edirdilər. Kurs işlərinə hazırlıq prosesində Məhərrəm müəllim mənə Şillerin “Qaçaqlar” əsərində baş rolu həvalə etdi. Sabit Rəhmanın “Toy” komediyasında Kərəmov obrazı mənə tapşırılanda isə etiraz etdim ki, mən Kərəmov deyiləm axı? Dedi, Kərəmov olmaya bilərsən, amma biz sənə o obraza daxil olmağı öyrətməliyik.

Öyrənə-öyrənə gəlib bu yaşa çatdım. Mənim əmək kitabçamda bircə iş yeri yazılıb. Bu səhnədə olduğum sənətkarların hərəsi bir məktəb olub. Fatma Qədri, Ağasadıq Gəraybəyli, Həsənağa Turabov və başqaları ilə tərəf-müqabil olmuşam.

### Çin olan arzular

– “Vaqif” tamaşasında Vidadini oynamışam. Bu da mənim arzum olub. O vaxtkı 26-lar adına Mədəniyyət Sarayında Lütfi Məmmədbəyovun dram dərnəyində həmin rolda Əli Qurbanovu görüb çox bəyənmişdim. Sazı özü çalırdı. Həmişə arzu edirdim ki, kaş, Vidadi rolunu oynayım, sazı da özüm çalım. Həmin gün gəldi, Vaqifi Həsənağa Turabov oynayırdı, Vidadini mən. Tələbələrimdən biri saz gətirdi, bir-iki saat məşq etdim və rejissor Məmmədkamal Kazımovdan xahiş etdim ki, səhnədə divardan butafor saz yox, bu sazı asaq, istəyirəm canlı ifa edəm, amma heç kim bilməsin. Razılaşdı və Vaqiflə şeir deyişməsində sazı götürüb başladım çalmağa. Səhnədəkilər çaşıb qaldılar. Tamaşaçılar da təəccübləndilər, çünki fonoqrama öyrəşmişdilər.

### Kinoya təsadüfi gəliş

– Mənə heç nə məcməyidə təqdim olunmayıb. Nə qazanmışamsa, öz zəhmətim bahasına olub. İstər teatrda, istərsə də kinoda. Kinoya gəlişim təsadüfi olub. O vaxt filmlərə çəkilməyə kənardan çox aktyor dəvət edirdilər. İlk dəfə kinoya “Leninqradfilm”də çəkilmişəm. Artıq 7 il idi ki, teatrda çalışırdım, Viktor Qolyavkin məni “Mənim əziz atam” adlı filmdə Əziz dayı roluna çəkdi. Lyudmila Qurçenko, Aleksandr Demyanenko ilə birlikdə oynadım. Sonra ardıcıl kinolara dəvət olundum. “7 oğul istərəm” filmindən 2 ay əvvəl cıdıra gedib at sürməyi öyrənmişdik. Tofiq Tağızadə bizi at belində kinostudiyanın həyətində sıraya düzdü və dedi ki, yeddiniz də sınaq çəkilişlərindən keçdiniz. “7 oğul istərəm” uğurlu alındı, Sonralar “Xatirələr sahili”, “Qızıl qaz”, “Ömrün ilk saatı” və sair filmlərdə çalışdıq. Televiziya tamaşalarında da çox çəkilmişəm. Bu, başqalaşmaq sənətidir və zəhmət tələb edir.

### Ağlagəlməz olay

– Çəkiliş proseslərində çox maraqlı hadisələr olurdu. “Arxadan vurulan zərbə” filmində Hüseynovun arxadan bıçaqla vurulması kadrı yaxşı yadımdadır. Bıçaq atanı sirkdən gətirmişdilər. 10 metrdən dəfələrlə atdı, bıçaq birbaşa hədəfə dəydi. Amma kadrı çəkəndə, az qala, başıma sancılmışdı. Üçüncü kadrda “əyil” işarəsində, deyəsən, mən də bir az gec əyilmişdim. Çəkiliş dayandı, hamı yığıldı başıma, onda anladım ki, xətadan qurtarmışam. Arif Babayev dedi ki, anan namaz üstündəymiş.

Çəkildiyim son film, hələlik, “Buta” ekran əsəri olub. İlqar Nəcəfin bu filmində indiyə qədər kinoda çəkildiyim bütün obrazlardan fərqli rola çəkildim. Festivallarda çoxsaylı mükafatlar aldı...

**Xalq artisti sonda yenə teatrdan danışdı:**

– Kino nə qədər maraqlı olsa da, teatr başqa bir aləmdir. Allah Nəbi Xəzriyə rəhmət eləsin. Dədə Qorqudun 1300 illiyinə həsr etdiyi “Burla Xatun” pyesini teatra təqdim edəndə özü dedi ki, Dədə Qorqudu Rafiq Əzimov oynasın. İndinin özündə də o əsəri əzbər bilirəm. Tamaşa uzun müddət səhnədən düşmədi, 1997-ci ildə “ilin tamaşası” seçildi.

İndi də teatrın repertuarındakı tamaşalarda oynayıram. İlyas Əfəndiyevin “Qarabağnamə”ləri əsasında hazırlanan tamaşa ilə bölgələrə qastrollara gedirik. Mehriban Ələkbərzadə Çingiz Aytmatovun “Əsrə bərabər gün” əsərinin tamaşasında mənə qəbilə başçısı obrazını həvalə edib. Hazırda məşqlər gedir, kiçik roldur, amma çox böyük obrazdır.

***Ramilə QURBANLI***
***XQ***

# Mədəniyyət xəbərləri

## “Yerlə göy arasında”




***“YARAT” Müasir İncəsənət Məkanı XX–XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilovun “Yerlə göy arasında” adlı fərdi sərgisi açılıb.***

Ekspozisiyada rəssamın son illər yaratdığı rəngkarlıq tabloları və ilk dəfə nümayiş etdirilən qrafika əsərləri yer alıb. Tədbirdən öncə Fərhad Xəlilovun həyat və yaradıcılığını əks etdirən film nümayiş olunub.

Sonra “YARAT”ın bədii rəhbəri Fərəh Ələkbərli Xalq rəssamının fərdi sərgisinin açılışını incəsənət aləmində mühüm hadisə kimi dəyərləndirib. Fərhad Xəlilov isə media nümayəndələrinin suallarını cavablandırıb, öz sənət dünyasından və sərgidə yer alan əsərlərdən danışıb.

“Yerlə göy arasında” adlanan bu sərginin adından da göründüyü kimi, daha çox abstrakt əsərlərə üstünlük verilib. Sərgi yanvar ayına qədər davam edəcək.

## Xalq Teatrları Festivalı

***Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə H.Abbasov adına Mədəniyyət Mərkəzində Azərbaycan peşəkar Milli teatrının 150 illik yubileyinə həsr olunmuş Xalq Teatrları Festivalının mükafatlandırma mərasimi keçirilib.***



Festivalın keçirilməsində məqsəd xalq yaradıcılığının inkişafı, mədəniyyət müəssisələrində fəaliyyət göstərən xalq teatrlarının və dram dərnəklərinin işinin daha da səmərəli təşkili, özfəaliyyət teatr kollektivlərinə gənclərin cəlb edilməsidir.

Münsiflər heyətinin qərarına əsasən, H.Sarabski adına Mədəniyyət evinin Xalq teatrının təqdim etdiyi “Cənnətə bilet” tamaşası 1-ci, H.Abbasov adına Mədəniyyət Mərkəzinin “Günəşim” özfəaliyyət dram dərnəyinin təqdim etdiyi “Tıq-tıq xanım və dostları” tamaşası 2-ci, H.Abbasov adına Mədəniyyət Mərkəzinin Xalq teatrının təqdim etdiyi “Cənnət sakinləri” və Badamdar qəsəbə Mədəniyyət evi Xalq teatrının təqdim etdiyi “Zorən nigah” tamaşaları 3-cü yerə layiq görülüb. Digər Xalq teatr kollektivləri isə “Ən yaxşı kişi rolu”, “Ən yaxşı qadın rolu”, “Ən yaxşı rejissor işi”, “Ən yaxşı musiqi tərtibatı”, “Ən yaxşı aktyor ansamblı” nominasiyaları üzrə fəxri fərmanlara və münsiflər heyətinin xüsusi diplomlarına layiq görülüblər.

## “Zəfərə gedən yol”

***Şəkidəki Heydər Əliyev Mərkəzində Vətən müharibəsində qazanılan tarixi Qələbəyə həsr olunan tədbir keçirilib və “Zəfərə gedən yol” adlı qısametrajlı filmin təqdimatı olub.***



Tədbirdə çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimizin qəhrəmanlığından bəhs edib. Bildirilib ki, Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər Ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyev işğal altındakı torpaqları azad etməklə həm də ata vəsiyyətini yerinə yetirib.

Sonra “Urfansoy Film” studiyası tərəfindən çəkilən “Zəfərə gedən yol” adlı qısametrajlı film nümayiş etdirilib. Filmdən sonra çıxış edənlər yaradıcı heyəti növbəti uğurları münasibətilə təbrik ediblər, filmin ərsəyə gəlməsində xidməti olan hər kəsə təşəkkür ediblər. Qeyd olunub ki, bu cür filmlərin gənclərin vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyə olunmasında böyük əhəmiyyəti var.

***Ə.DOSTƏLİ***
***XQ***

# Bakıda hərbçilərin dünya çempionatı uğurla davam edir

## Sərbəst güləşçilərimiz komanda hesabında birinci olublar

**Bakıda "Sərhədçi" İdman Mərkəzində təşkil olunan hərbçilər arasında güləş üzrə 36-cı dünya çempionatında Azərbaycan komandasının uğurlu çıxışı davam edir. Dünya güləşinin inkişafına böyük töhfələr verən Azərbaycan məktəbinin nümayəndələrinin qazandığı qələbələr bir-birini əvəz etdikcə artan gücümüz, qüvvətimiz qəlbləri riqqətə gətirir.**



Ağzınacan dolu olan zalda azarkeşlərin pəhləvanlarımıza verdikləri güclü dəstək xalqımızda qələbə ruhunun nə qədər yüksək olduğunu bir daha göstərir. Bu nüfuzlu yarışda sərbəst güləşçilərimiz tarix yazmağı bacardılar. Pəlavanlarımız ümumilikdə, 5 qızıl, 1 gümüş, 1 bürünc medalla komanda hesabında birinci yeri tutublar.

Ən titullu güləşçilərimizdən biri, dəfələrlə dünya və Avropa çempionu Hacı Əliyev ilk dəfə qatıldığı hərbçilər arasında dünya çempionatının qalibi olub. O, müsahibəsində bu medalın onun üçün çox dəyərli olduğunu qeyd edib. Bütün qələbələrin onun üçün böyük önəm daşıdığını deyən güləşçinin əldə etdiyi yüksək nəticə onun yaxşı formada olduğunu göstərir. XXXI Yay Olimpiya Oyunlarında bürünc, Tokio Olimpiadasında isə gümüş medala sahib olan güləşçimiz Paris Yay Olimpiya Oyunlarında qızıl medal qazanmaq iddiasındadır.

Mundialın daha bir qalibi Əli Rəhimzadə (65 kq) ölkəmizdə belə mötəbər yarışın keçirilməsinin qürurverici olduğunu bildirib. Güləşçi belə bir nüfuzlu yarışda qalib olduğu üçün çox sevindiyini vurğulayıb:

–Xalçaya qızıl medal üçün çıxmışdım. Məqsədim doğma divarlar arasında ən yüksək mükafatı qazanmaq idi. Dövlət Himnimizin sədaları altında Azərbaycan bayrağını zirvədə görmək şərəfli hissdir. Qələbəmi torpaqlarımızın azadlığı uğrunda canını qurban verən şəhidlərimizə həsr edirəm.

Eləcə də, digər sərbəst güləşçilərimiz Turan Bayramov (74 kq), İbrahim Yusubov (92 kq), Orxan Abbasovun (79 kq) qızıl, Ceyhun Allahverdiyevin (61 kq) gümüş, Fərid Cabbarovun (86 kq) bürünc mükafatları komandamızın güclü potensialını göstərir.

Qadın güləşçilərimizin dünya çempionatında nailiyyətlərini də xüsusi vurğulamaq olar. 17 yaşlı Ruzanna Məmmədovanın (59 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşması çox böyük nəticədir. 2022-ci ildə yeniyetmələr arasında dünya və Avropa çempionatlarının qızıl medalını almış istedadlı güləşçimiz daha böyük qələbələr qazanmağa qadir olduğunu göstərib. Gənc qızlar arasında daha bir istedadlı güləşçimiz, builki Avropa çempionatının bürünc mükafatçısı Jalə Əliyeva (57 kq) da dünya çempionatında fəxri kürsünün ən yüksək pilləsində yer almaqla, ona bəslənilən ümidləri doğruldub. Onun komanda yoldaşları Elnurə Məmmədovanın (50 kq) gümüş, Gültəkin Şirinova (53 kq), Nərgiz Səmədovanın (55 kq) bürünc mükafatları da diqqətəlayiq uğurlardır. Bununla da, qadın millimiz 2 qızıl, 1 gümüş, 2 bürünc medalla çempionatı komanda hesabında ikinci yerdə başa vurub.

Dünən çempionatın 3-cü günündə yunan-Roma güləşçilərimiz də mübarizəyə uğurla start veriblər. Belə ki, xalça üzərinə çıxan güləşçilərimizin 5-i də mükafat qazanmağa nail olublar. Təmsilçilərimizdən Ziya Babaşov (63 kq), Ülvi Qənizadə (72 kq) və Murad Əhmədiyev (97 kq) qızıl medala layiq görülüblər. Fərid Sadıxlı (55 kq), Azad Əliyev (82 kq) isə bürünc medal alıblar.

Bununla da, komandamızın əldə etdiyi medalların sayı, ümumilikdə 18-ə çatıb.

Qeyd edək ki, mindialda 18 ölkədən 200-dən çox güləşçi mübarizə aparır. Yarış dekabrın 3-dək davam edəcək.

*Leyla QURBANOVA*
*XQ*

# Finlandiya Rusiya ilə sərhədlərini bağladı



**Noyabrın 30-dan Finlandiya ilə Rusiya arasında 1300 kilometrlik sərhədin bağlandığı bildirilir. Finlər yaxın iki həftə ərzində sərhədin bağlanması qərarını Rusiya ərazisindən Yaxın Şərq və Afrika qaçqınlarının kəskin axınının qarşısını almaq istəyi ilə əsaslandırlar. Rusiya isə sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün atılan belə tədbirləri "artıq" hesab edir.**

Finlandiyanın Rusiya ilə sərhəddəki keçid məntəqəsini bağlaması mərhələlərlə, lakin çox dinamik şəkildə baş verib. Hələlik finlər dekabrın 13-ü daxil olmaqla sərhədi bağlı saxlamaq qərarına gəliblər, lakin Finlandiya sərhəd xidmətinin nümayəndəsi Matti Sarasmaa bağlanma qərarının daha iki həftə müddətinə uzadıla biləcəyini deyib. Beləliklə, yaxın günlərdə iki ölkənin 1300 kilometrlik sərhədini quru yolu ilə yalnız dəmir yolu ilə keçmək mümkündür. Bunu da ancaq yük maşını və Finlandiyanın cənub-şərqindəki Vainikkala sərhəd keçidi vasitəsilə həyata keçirmək mümkün olacaq.

Rusiya KİV-i də 1939-1940-cı illər Sovet–Finlandiya müharibəsindən sonra ilk sərhədin bağlanmasının səbəbinin miqrantlar olduğunu xatırladır. Finlandiya Sərhəd Xidməti təkcə noyabr ayında Rusiyadan Finlandiyaya Somali, Yəmən, İraq və Suriya kimi ölkələrdən 900-dən çox miqrantın gəldiyini bildirir. Helsinki belə qeyri-adi kütləvi qaçqın axınında Moskvanın "əli" olduğunu düşünür. Kəşfiyyat məlumatlarına əsaslanaraq Finlandiya tərəfi hesab edir ki, sığınacaq axtaranların sərhədə çatmasına məhz Rusiya kömək edir. Bunu Finlandiyanın baş naziri Petteri Orpo deyib və bu cür hərəkətləri Moskvanın "hibrid əməliyyatı" adlandırıb. Finlandiya prezidenti Sauli Niinistö isə qeyd edib ki, Rusiyanın təşkil etdiyi Finlandiyaya miqrant axını Skandinaviya ölkəsinin NATO-ya daxil olması üçün "Kremlin qisası"ndan başqa bir şey deyil.

Helsinkidən sonra estonlar sərhəd məsələsində təcili addımlar atmağa başladılar. Ötən həftə Stokholmda keçirilən Şimal-Baltik sammitində Estoniyanın müdafiə naziri Hanno Pevkur son həftələrdə Finlandiyanın Rusiya ilə sərhədinə gələn yüzlərlə insanın "tamamilə dövlət tərəfindən təşkil olunmuş əməliyyatın" bir hissəsi olduğunu təkrarladı. Lakin Tallin hələlik Rusiya ilə sərhədləri bağlamamaq qərarına gəlib. Estoniya daxili işlər nazirliyinin rəhbəri Lauri Läänemetsin "Euronews" telekanalına müsahibəsində bildirib ki, Tallin Rusiya–Finlandiya sərhədi bağlandıqdan sonra Rusiyadan gələn miqrasiya təzyiqinə hazırdır: " Miqrasiyanın Estoniyanın sərhədlərinə və ya sərhəd məntəqələrinə yayılacağı təqdirdə bütün hazırlıqları görmüşük". Litva və Norveçdə də analoji gözləmə mövqeyi nümayiş etdirir. Hər iki ölkə gələcəkdə Finlandiya kimi analoji addım atacaqlarını istisna etməyiblər, lakin hələlik Rusiya ilə sərhədlərini bağlamamaq qərarına gəliblər.

Rusiya KİV-i yazır ki, Moskva ilə Helsinki arasında miqrantlarla bağlı münaqişə NATO rəhbərliyindən də yan keçməyib. NATO-nun baş katibi Yens Stoltenberq bu həftəki çıxışında bildirib ki, miqtantlarla bağlı son proses Rusiyanın qonşularına təzyiq göstərmək üçün müxtəlif vasitələrdən istifadə etməsinin başqa bir nümunəsidir: "Biz onların enerjidən, kiberhücumlardan və demokratiyamızı sarsıtmaq üçün müxtəlif növ gizli əməliyyatlardan necə istifadə etdiklərini gördük". İsveçin baş naziri Ulf Kristersson isə noyabrın 27-də Helsinkidə fin həmkarı ilə birgə keçirilən mətbuat konfransında qeyd edib ki, Finlandiya sərhədini qorumaq ortaq məsuliyyətdir və Finlandiya bunu istəsə, o, mütləq qonşuların dəstəkləyəcək. Lakin polyaklar müraciət gözləmədən Finlandiyaya yardım göndərəcəklər. Noyabrın 29-da Polşa milli təhlükəsizlik bürosunun rəhbəri Jacek Sievera bildirib ki, "çox yaxın gələcəkdə" Varşava ölkənin Rusiya ilə sərhədinin mühafizəsinə kömək üçün Finlandiyaya bir qrup hərbi qulluqçu göndərəcək. Onun sözlərinə görə, belə bir razılaşma noyabrın 20-21-də Varşavada Finlandiya prezidenti ilə polşalı həmkarı Anjey Duda arasında keçirilən görüşdə əldə olunub.

Gözlənildiyi kimi, Rusiya Finlandiyanın sərhədlərini bağlamasına mənfi yanaşdığını açıqlayıb. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov noyabrın 29-da jurnalistlərə bildirib ki, belə bir münaqişə yoxdur: "Finlandiyanı heç kim və heç nə təhdid etmir. Bütün bunlar sərhəd təhlükəsizliyini təmin etmək üçün lazımsız tədbirlərdir. Heç bir təhlükə yoxdur və reallıqda gərginlik yoxdur". Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə qeyd edib ki, "Helsinki öz qərarı ilə təkcə Moskva ilə münasibətləri yox, həm də öz vətəndaşlarının həyatını korlayıb, onlara sərhədi keçmək imkanından məhrum edib".

Ancaq sərhədin bağlanmasının qısamüddətli olacağı güman edilir. Finlandiya rəsmiləri də buna eyham vururlar. Ölkənin ədliyyə kansleri Tuomas Pejusti bildirib ki, əgər təhlükənin azaldığı ortaya çıxarsa, hökumət tədbirlər görməlidir.

*S.ELAY*
*XQ*

XQ-yə cavab verirlər

# "Kəpəz"i batıranlar klubdan kənarlaşdırılıblar

**Qəzetimizin 7 noyabr 2023-cü il tarixli nömrəsində dərc olunmuş "Kəpəz"i batıranlar kənarda təqsirkar axtarırlar" sərlövhəli tənqidi yazı futbol ictimaiyyəti arasında geniş əks-səda yaradıb. "Kəpəz" PFK İB-nin İdarə Heyətinin iclasında isə həmin yazı ciddi müzakirə edilib. Klub rəhbərliyində təmsil olunanlar göstərilən fikirlərlə bağlı araşdırmaların aparılmasını aidiyyəti üzrə müvafiq şəxslərə tapşırıb, bu yöndə göstərişlər veriblər.**

**İdman qurumunun idarə heyətinin sədri İlqar Nadirinin bu barədə redaksiyamıza göndərdiyi cavab məktubunda bildirilir:**

– Yazıda ünvanımıza deyilən tənqidi fikirlərin müəyyən bir qisminin həqiqətən "Kəpəz" futbol klubunun fəaliyyətində mövcud olduğu təsdiqini tapdı. Belə halların gələcəkdə baş verməməsi, təkrarlanmaması üçün tədbirlər görülür.

Nəzərinizə çatdıraq ki, komandanın uğursuz çıxışı ilə bağlı baş məşqçi Azər Məmmədovun istefası qəbul olunub və o, klubdan ayrılıb. Komandanın baş məşqçiliyi vaxtilə klubda çalışmış Adil Şükürova tapşırılıb, onunla iki illik müqavilə imzalanıb. Əvvəlki heyətdəki mütəxəssislərin fəaliyyətinə son verilib. Daxili nizam-intizam qaydalarını pozanlar, neqativ hallara yol verənlər klubdan uzaqlaşdırılıblar. Bəzilərinə son xəbərdarlıqlar edilib. Məsul əməkdaşlara fəaliyyətləri günün tələbləri səviyyəsində qurmaları tapşırılıb.

Gəncə Futbol Akademiyasının direktoru Cabir İbrahimov klubda icraçı direktor təyin olunub, onun səlahiyyətləri artırılıb. Şəhər stadionunun yenidən qurulması işi uğurla davam etdirilir və artıq söküntü işləri başa çatmaq üzrədir. Qısa bir müddətdə müasir bir stadionun tikilib istifadəyə verilməsi Gəncədə futbolun inkişafına daha da təkan olmaqla, on minlərlə azarkeşi sevindirəcək.

Gəncə şəhər stadionu ərazisində, "Kəpəz" klubunun bazasında Gəncə Futbol Akademiyası təşkil edilməsi regionumuzda futbolun inkişafı üçün zəmin yaradıb. Futbol akademiyasının yeni binası müasirliyinə görə göz oxşayır, hərtərəfli təchizatı ilə fərqlənir. Bu tikili Qərb bölgəsində ən mühüm idman obyektlərinin, bazaların sırasında yer alıb. Tezliklə açılışı reallaşacaq akademiya müxtəlif yaş qruplarından ibarət komandaların ixtiyarına veriləcək, burada yüzlərlə futbolçu sevimli idman növü ilə ən yaxşı şəraitdə məşğul ola biləcək.

Akademiya ilə yanaşı, stadionda məşq mərkəzi üçün meydanlar hazırlanaraq istifadəyə verilib. Standart ölçülərə malik meydançalardan ikisi təbii, biri sünidir. Hazırda komandalar məhz burada məşq edib, oyunlara çıxırlar.

Məlumat üçün bildiririk ki, hazırda premyer liqada olan 10 klubdan yalnız "Kəpəz"in sponsoru yoxdur. Bu da klubun fəaliyyətinə, komandanın stabil oynamasına mənfi təsir göstərir. Lakin bütün bunlara baxmayaraq, hazırda "Kəpəz" mübariz əhval-ruhiyyədədir. Biz bütün qüvvəmizi Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə klubunun normal fəaliyyəti üçün səfərbərliyə almışıq.

*XQ*

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

Kafedralarda boş olan vəzifələri tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

Akademik rəngkarlıq və kompozisiya - 1 ştat professor – 1 yer.
Qrafika – 0,5 ştat professor- 1 yer, 1 ştat dosent – 1 yer.
Geyim dizaynı – 1 ştat dosent – 1 yer, 1 ştat baş müəllim – 2 yer.
İncəsənət tarixi – 1 ştat professor – 1 yer, 1 ştat baş müəllim - 2 yer.
Heykəltəraşlıq – 1 ştat professor – 1 yer.
Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.
Sənədlər təlimata uyğun olaraq bu ünvana göndərilməlidir.
Ünvan- Bakı, H.Əliyev prospekti 58.

REKTORLUQ

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il dekabrın 8-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- (012) 404-37-00, daxili- 1263.
Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı"
Qapalı Səhmdar Cəmiyyəti

işçilərin nahar, gecə növbəsi və xüsusi sifariş üzrə qida təminatının təşkilinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 27 dekabr 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).
Ünvan- AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

B İ L D İ R İ Ş

"RƏVAN-TURAN" MMC (VÖEN 1403045021) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsinə ərizə ilə müraciət etmişdir.
e-2-2(113)-6139/2023 saylı işə məhkəmə baxışı 8 dekabr 2023-cü il saat 14.30-a təyin olunmuşdur. Debitor və kreditorlar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.
Əlaqə telefonu- (012) 525-20-74.
Ünvan- AZ1040. Bakı şəhəri, Bakıxanov qəsəbəsi, O.Əfəndiyev küçəsi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 263 (30379) 2 dekabr 2023-cü il, şənbə

## İdman xəbərləri

### Millimiz B Liqasına yüksəlib



**UEFA Millətlər Liqasında qadın futbolçulardan ibarət Azərbaycan millisi növbəti oyununu keçirib.**

Limassol şəhərinin eyniadlı stadionunda oynanılan matçda komandamız Kiprlə üz-üzə gəlib. Oyun yığmamızın 1:0 hesablı qələbəsi ilə başa çatıb. Millimizin heyətində 9-cu dəqiqədə Diana Məmmədova fərqlənib.

Beləliklə, xallarının sayını 13-ə çatdıran yığmamız qrup liderliyini təmin edib və B Liqasına yüksəlib.

Qarşılaşmanı Belçikadan olan hakimlər briqadası idarə edib. Baş hakim Kerolayn Lanssens olub. Ona İrmqard Van Meyrvenn və Marqo Ceykops kömək ediblər. Dördüncü hakim funksiyasını isə Yana Van Laer yerinə yetirib.

### Rapid və blitsdə ən güclülər

**Qadınlar arasında şahmatın rapid və blits növləri üzrə Azərbaycan çempionatının qalibi müəyyənləşib.**



Bakı Şahmat Klubunda təşkil olunan iki yarışın yekununa əsasən 14 xal toplayan Ləman Hacıyeva Azərbaycan çempionu olub. Ayan Allahverdiyeva 13,5 xalla ikinci pillədə qərarlaşıb. Aktivində 13 xal olan Türkan Məmmədyarova əlavə göstəricilərə görə 3-cü yeri tutub.

Azərbaycan çempionatı Özbəkistanın Səmərqənd şəhərində keçiriləcək rapid və blits üzrə dünya çempionatlarına seçmə xarakter daşıyır.

### Rusiyada gümüş qazanıldı

**Stolüstü tennisçimiz Onur Quluzadə Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən beynəlxalq turnirdə 2-ci yeri tutub.**



İdmançımız Nikolay Nikitinin xatirəsinə həsr olunmuş ənənəvi yarışda 2010-cu il və daha kiçik təvəllüdlü idmançıların mübarizəsində qrup mərhələsində bütün rəqiblərini məğlub edib. Növbəti mərhələlərdə Belarus, daha sonra Rusiya idmançılarını üstələyərək finala yüksələn təmsilçimiz həlledici oyunda özündən bir yaş böyük olan rusiyalı rəqibinə uduzaraq gümüş medalla kifayətlənib.

Onur Quluzadə bu nəticə ilə 2008–2009-cu il təvəllüdlü idmançıların turnirində mübarizə aparmaq hüququ qazanıb.

*Leyla SABİRQIZI*
*XQ*


## OXUCULARIN NƏZƏRİNƏ!

### "Xalq qəzeti"

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Futbol aləmi

### ÇL-də10 mininci qol

**Çempionlar Liqası tarixində 10 mininci qolu vurmaq "Sevilya"nın müdafiəçisi Serxio Ramosa nəsib olub. 37 yaşlı ispaniyalı Çempionlar Liqasının qrup mərhələsinin 5-ci turunun PSV ilə ev oyununda (2:3) 24-cü dəqiqədə hesabı açıb. Onun qolu 1992-ci ildən başlayan turnirin müasir tarixində 10 000-ci qol olub.**



Bu, Ramosun Çempionlar Liqasının yubiley topunu ilk dəfə vurması deyil. İspan futbolçu 2013-cü ildə "Real"da oynayarkən "Mançester Yunayted"lə qarşılaşmada (1:2) avtoqol vuraraq, turnir tarixində 6000-ci qolu vurub.

Maraqlıdır ki, Çempionlar Liqası tarixində 1000-ci qolu 1998-ci ildə həmin vaxt PSV-də çıxış edən rusiyalı yarımmüdafiəçi Dmitri Xoxlov vurub.

*XQ*



## Türk xalqları mətbəxi Şuşada

**Şuşada Dövlət Turizm Agentliyi və Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə türk xalqlarının ortaq mətbəx nümunələrinin təqdimatı keçirilib.**

Üzeyir bağında açıq havada təşkil olunan tədbirdə Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova, Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və Macarıstandan olan nümayəndələr iştirak ediblər.




Qonaqlar əvvəlcə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın mətbəx nümunələrini təqdim edən stendlərlə tanış olublar. İştirakçılara türkdilli dövlətlərin milli xörəkləri, şirniyyatları, o cümlədən qutab növləri, plovlar, beşbarmak, kumis, Qarabağ kətəsi, fərqli növ ət yemələri, türk qəhvəsi təqdim edilib.

Tədbir çərçivəsində türkdilli ölkələrdən dəvət edilmiş tanınmış aşpazlar ustad dərsləri keçirəcək, canlı yemək bişirilməsi prosesi nümayiş etdiriləcək.

*XQ*

## Yeni il soraqlı yolkalar

**Paytaxtımızın bir çox böyük küçə və meydanlarında artıq rəngbərəng və göz oxşayan oyuncaqlarla bəzədilmiş bayram yolkaları qurulub. Beləcə, elimizə, obamıza təzə il gəlir...**



Hər birimiz Yeni ilin gəlişini səbirsizliklə gözləyirik. Növbəti ildə arzu və diləklərimizin gerçəkləşəcəyinə inamımız, qəlbimizdəki ümid və sevgilərimiz artır. Düşüncələrimizə bayram əhvalruhiyyəsi hakim kəsilir.

Bakı sakinləri Yeni ili qarşılamağa hazırlaşırlar. Şəhərin ən gur yerlərindən olan "Fəvvarələr meydanı"nda dünən bayram ab-havasının yaşandığını gördük. Körpə uşaqları ilə buraya gəzməyə gələn gənc valideynlər, tələbələr, yaşlılar, bir sözlə hər kəs meydanda təşkil olunan xeyriyyə yarmarkasının açılışını gözləyir, xatirə şəkilləri çəkdirirdilər.

Hamı Yeni il yolkasına xüsusi həvəslə baxırdı. İnsanların üzündəki maraq və sevinci duyub onların bir neçəsinə yaxınlaşdıq və Yeni ilə necə hazırlaşdıqlarını soruşduq.

**Alya Fərzullayeva, tələbə:**

– Yeni ili çox sevirəm. Bayram yolkası xüsusilə gözəldir. Hər il olduğu kimi, bu ildə də burada maraqlı tədbirlərin təşkil olunacağına ümid bəsləyirəm.

Burada paytaxt sakinləri ilə yanaşı, dünyanın müxtəlif ölkələrindən Bakıya gələn qonaqlar da var idi.

**Mehmet Önər adlı türkiyəli turist dedi:**

– Biz Bakının gözəlliyinə vurğunuq. Yolkalar şəhərin bayram əhvalını daha da artırıb. Burada Yeni il, adətən, daha fərqli və əylənceli keçir.

*Fidan HÜQUQQIZI,*
*Elşən AĞALAR, (foto)*
*XQ*

## Hava

### Günümüz yağmursuz və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin məlumatına əsasən, dekabrın 2-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 7-11°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 14-19° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 6-11° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsi müdirinin müavini Fikrət Əzizova qardaşı

ELŞAD ƏZİZOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4747
SİFARİŞ 3121
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00